38_27 IYUl-QARA.qxd 10/9/2025 9:46 PM Page 1


# UNİKAL

№38 (2268) 10 oktyabr 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az




# Putin-Əliyev görüşündə razılıq:

## Kompensasiya ödənəcək, günahkarlar cəzalanacaq



Səh.2

## Baş nazir bu vəzifəli şəxslərə dair meyarları təsdiqlədi

*Nazirlər Kabineti "Rəqəmsal inkişaf və elektron hökumətlə bağlı görülən işlərin və həyata keçirilən tədbirlərin icrasına məsul vəzifəli şəxslərin (ali kateqoriya dövlət orqanları, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanları, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri istisna olmaqla) fəaliyyətinin qiymətləndirilməsi meyarları"nı təsdiq edib. "Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb. Qərara əsasən, mərkəzi və yerli icra hakimiyyəti orqanları (ali kateqoriya dövlət orqanları, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin...*

Səh.8

## Əli Nağıyev Bakıdakı beynəlxalq konfransda iştirak etdi



*Oktyabrın 9-da Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının (Dövlət Komissiyası) təşkilatçılığı və müvafiq sahədə fəaliyyət göstərən təsisatların nümayəndələrinin iştirakı ilə İtkin düşmüş şəxslər üzrə Bakı Dialoqu çərçivəsində "İtkin düşmüş şəxslər...*

Səh.4

## Yaqub Eyyubov da təqaüdə göndərilir



*"Unikal" qəzeti olaraq, son sayımızda yazmışdıq ki, yaxın altı ayda Azərbaycanda bir sıra yüksək vəzifəli şəxslərin təqaüdə göndərilməsi gözlənilir. Onlardan biri olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahovun göstərildiyini də qeyd etmişdik.*

Səh.5

## Azərbaycanda sahibkarlara "yaşıl işıq"



*Azərbaycanda həyata keçirilən iqtisadi islahatların uğur qazanmasında dövlətin sahibkarlara göstərdiyi dəstək mexanizmlərinin mühüm payı var. Dövlət başçısının sahibkarlıq sektorunda apardığı məqsədyönlü siyasətin nəticələrindən biri də, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında"...*

Səh.11

38_27 IYUl-QARA.qxd 10/9/2025 9:50 PM Page 2



# "Gecə 2-də məni yığır ki, dostumlayam, gəl" - Vəfa Şərifova



***Müğənni Vəfa Şərifova qalmaqallı açıqlama verib. O, həmkarı Pünhan Priyev haqqında gözlənilməz sözlər deyib.***

Sənətçi münasibətlərinin korlanma səbəbinə aydınlıq gətirib: "Pünhan mənə gecə saat 2-də yığıb dostumla oturmuşam, gəl deyir. Münasibətimiz ilk ona görə pozuldu. Ondan sonra efirə çıxıb hər dəfə danışır. Deyirəm, məni kiminləsə o saatda oturan görmüsən? Ancaq rəfiqələrim, ailəmlə ola bilər. Adamın pisinə gəlir. Davranışı, istək düzgün deyil. Bil ki, mənə deyirsən. Məni bir dəfə haradasa görmüsənsə, çağır, haqqın var. Hansı ixtiyarla gecə zəng vurub çağırırsan? Sonra da səmimi deyil, ondan xoşum gəlmir, deyirsən. Xoşun gəlməz də... Niyə gəlsin?

Pünhanla birgə Rusiyaya səfərimiz oldu, yol getdik. Onunla qartopu videoumuza görə də problem yaranmışdı. Yolda bu məsələni aydınlaşdırdım. Dedi ki, səhvimi anladım. Mövzu bağlandı. Sonra efirlərə çıxıb mənə söz atdı. Ona heç bir pisliyim olmayıb. İllərdir mənə kin saxlayır. Bu, düzgün deyil".

# Aqşin-Manaf qalmaqalı yenidən "alovlandı": "Üz-üzə danışacağıq"



***Xəbər verdiyimiz kimi, müğənnilər Manaf Ağayev və Nəfəs arasında yaranan qalmaqala meyxanaçı Aqşin Fateh də qoşulmuşdu.***

Qonaq olduğu verilişdə söz ustasına sərt xəbərdarlıq edən sənətçiyə cavab gecikməyib.

Aqşin Manafla üz-üzə görüşəcəyini bildirib: "Deyir ki, Aqşinə "Şahnaz" muğamı oxutduracağam. Mənə bunu edə bilsən, sənə səhərə qədər əruz vəznində meyxana dedizdirərəm. Yaşın, sənətin var. Dediklərinə hörmətlə yanaşdım. Bir az gözlədim. Bu, verilişdə başından yuxarı danışdığın sözün cavabı idi. Mənimlə işi olacaq deyib, başqa tərzdə danışmaq istəyir. Zəng etdim özünə. Efirdə qalmaqala çevirməyə ehtiyac yoxdur. Dedim niyə elə danışmısan? Mənimlə nə işin var? Mənə deyir ki, verilişdən olan kadrları montajçılar kəsib doğrayıb göstəriblər. Yəni ki, yanlış anlaşma olub. Dedim ki, bu məsələni görüşüb həll edək. Bir də efirdə kimsə bu barədə danışıb, müzakirə etməsin. Manafla iki kişi oturub üz-üzə söhbət edəcəyik".

# Qalmaqal pik həddə: "Sizin danışığınıza tüpürüm"



***Müğənnilər Pünhan Piriyevlə Ülviyyə Namazova arasında gərginlik pik həddə çatıb.***

Önçəki efirlərində birində geyimini ələ salıb səhnə mədəniyyətinin olmadığını deyən xanım həmkarına mesaj ünvanlayan ifaçı qəzəbini gizlədə bilməyib.

Efirə telefonla bağlanıb əsəblərini cilovalya bilməyən Piriyev barışdığı Ülviyyəyə gözlənilmədən ağzından çıxanı deyib: "Bil ki, kimə ilişirsən. Mən efirə geyimimi bilirəm səhnə mədəniyyətim də var. Xanım olmasaydı başqa cür danışardım. Özünə də telefonla demişəm. Bəsdirin efirdən insanlar baxır. Mənim anam şou-biznes əhli deyil. Onunla niyə danışırsan? Mən uşağam ki o sözü deyirsən. Adamı sənətə nifrət etdirməyin iyrəndirəm artıq. Üzə bir cür arxada başqa danışırısınız. Mənə minnət qoyma. Tüpürüm sizin danışığınıza. Məni danışdırmayın. Hara baxıra eyni hər gün eyni şey. Mənim də özümə görə problemlərim var".

# Aygün Kazımovadan MDB Oyunlarının bağlanışında möhtəşəm şou



***Gəncə stadionunda III MDB Oyunlarının bağlanış mərasimi keçirilib.***

Tədbirdə rəsmi qonaqlar, beynəlxalq idman təşkilatlarının nümayəndələri, idmançılar və tamaşaçılar iştirak ediblər.

Mərasimdə Xalq artisti Aygün Kazımova möhtəşəm şou ilə çıxış edib. Narıncı geyimdə səhnəyə çıxan Pop kraliça 6 məşhur mahnısını oxuyub. Kazımova mahnılarını rəqs qrupu ilə hazırladığı şoularla təqdim edib. Qeyd edək ki, Azərbaycan Oyunları ümumilikdə 184 medalla başa vurub. Bunların 33-ü qızıl, 56-sı gümüş, 95-i isə bürünc mükafatdır. Ölkəmiz bu göstərici ilə ümumi medal sıralamasında 2-ci yeri tutub.

# Zülfiyyə Xanbabayeva formada qalma sirrini bölüşdü



***Xalq artisti Zülfiyyə Xanbabayeva formada qalma sirrini bölüşüb.***

Müğənni "Söhbət var" proqramında xüsusi pəhriz saxlamadığını deyib.

"Çörəksiz qala bilmərəm. Gündə bir tikə də olsa yeməliyəm. Qadınlar da var ki, çörəyə həsrətdirlər. Gündə bir dəfə yeyərəm. tez doyuram. Bir də şirniyyat yemirəm. Harasa gedəndə qabağıma qoysalar yeyərəm. Amma alıb evə gətirmələrəm. Burada bəxtim gətirib. Bir də mən çox hərəkətliyəm. Buna görə psixoloqa gedəcəyəm. Otura bilmirəm, tez-tez dururam. İnsanlar dəniz kənarında uzanıb, dincələr. Mən isə sahildə o başa, bu başa gəzərəm" deyə, Xanbabayeva əlavə edib.

# Türkiyədə saxlanılan məşhurlar sərbəst buraxıldı

***Xəbər verdiyimiz kimi, İstanbulda narkotik istifadəsini təşviq etmək ittihamı ilə başladılan əməliyyat çərçivəsində bir çox məşhur sima polis tərəfindən nəzarətə götürülüb.***

Polisə ifadə verən tanınmışlar daha sonra narkoloji testlərdən keçərək sərbəst buraxılıblar.

19 nəfərə qarşı keçirilən əməliyyatda ifadə verənlərə "Narkotikdən istifadə etmisən?", "Narkotikdən istifadə edən tanıyırsanmı?", "Narkotik üçün pul köçürmüsən?" kimi suallar verilib.

İstintaq test nəticələrinə əsasən formalaşacaq. Qan və saç nümunələrində qadağan olunmuş maddələr olanlar cinayət məsuliyyətinə cəlb olunacaqlar.

38_27 IYUl-QARA.qxd 10/9/2025 9:51 PM Page 3





## Baş nazir bu vəzifəli şəxslərə dair meyarları təsdiqlədi

***Nazirlər Kabineti ”Rəqəmsal inkişaf və elektron hökumətlə bağlı görülən işlərin və həyata keçirilən tədbirlərin icrasına məsul vəzifəli şəxslərin (ali kateqoriya dövlət orqanları, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanları, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri istisna olmaqla) fəaliyyətinin qiymətləndirilməsi meyarları”nı təsdiq edib.***

”Unikal” xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, mərkəzi və yerli icra hakimiyyəti orqanları (ali kateqoriya dövlət orqanları, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanları, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri istisna olmaqla), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və digər büdcə təşkilatları rəqəmsal inkişaf və elektron hökumətlə bağlı görülən işlərin və həyata keçirilən tədbirlərin icrasına məsul vəzifəli şəxslərin fəaliyyətinin bu Qərarla təsdiq edilən meyarlar əsasında illik qiymətləndirməsinin nəticələrini təsdiqedici sənədlərlə birlikdə hər növbəti təqvim ilinin yanvarın 30-na qədər Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinə və ”Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində bəzi tədbirlər haqqında” ölkə Prezidentinin 17 aprel 2021-ci il tarixli fərmanına uyğun olaraq Dövlət Təhlükəsizliyi Xidmətinə təqdim etməlidir.

# Məzahir Pənahovun oğlu ətrafında ilginc müəmma

## MSK sədrinin oğlu Azərbaycana gələ bilmir? - Bir sual, çoxlu cavab...

***Bu günlərdə Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahovun oğlu Məhəmməd Pənahovla keçmiş həyat yoldaşı arasındakı qalmaqal yenidən alovlanıb. Belə ki, Bakı Apellyasiya Məhkəməsi tərəflərin boşanmasını təsdiqləyib və qadına çatmalı olan əmlakın ona qaytarılması barədə yeni qərar çıxarıb. Lakin oğul Pənahov bu qərarla heç cür razılaşmır. O, çəkişməni Ali Məhkəmədə davam etdirməyə hazırlaşır.***

Gəlin H.Pənahova isə yeni iddialarla çıxış edib. O, bu günlərdə “Qafqazinfo”ya bildirib ki, keçmiş əri hələ də ona və vəkilinə müəyyən vasitələrlə təzyiq göstərməyə çalışır. Özü ölkəyə gəlməsə də, vəkili məhkəmədə ona qarşı uydurma çıxışlar edir: “Binəqədi Məhkəməsində məni oğru və böhtançı kimi təqdim etməyə çalışırdılar. Guya tələb etdiyim əşyaları mən evdən qaçmazdan əvvəl harasa daşımışam. Lakin Məhəmməd və ailəsi yaxşı bilir ki, belə bir şey mümkün deyildi. Biz bir il Bakının “Milyonçular məhəlləsi” kimi tanınan Ceyhun Hacıbəyli küçəsində dördmərtəbəli imarətdə yaşamışıq. Sonra da Kaliforniya ştatının Los-Anceles şəhərinə köçmüşük. Hər iki evimizdə otaqların hər birində kameralar quraşdırılmışdı. Mən heç evdən tək çıxmırdım, həmişə sürücüləri müşayiət edirdilər. 300 minə yaxın qiyməti olan həmin əşyalar hamısı mənə aiddir: cehiz, geyimlər, qızıl-zinət əşyaları və sair. Zinət əşyalarının və geyimlərin bir hissəsi nikah dövründə hədiyyə kimi verilib. Amma əvvəlki məhkəmədə məni əliboş gələn gəlin kimi təqdim etdilər. Ən maraqlı və gülüş doğuran məqam isə odur ki, Bakı Apellyasiya Məhkəməsində fikirlərini dəyişiblər. Dedilər ki, guya toyda mənə hədiyyə etdikləri qızıl-brilyant komplekti Məhəmmədin bacısından icarəyə götürülüb. Belə yalan olar? Pənahovlar ailəsinin gəlininə komplekt almağa pulu yoxdur? İnanırsınız, məhkəmədə hakim özü belə bu sözün inandırıcı olmadığını dedi. İndi onların istədiyi odur ki, mənə heç nə çatmasın. Mən onlardan nə imarətlər, nə maşınlar, nə də pul istəmişəm və istəmirəm də - sadəcə boşanmaq və mənə aid olanı almaq istəyirəm”.

Pənahova daha bir ciddi iddia irəli sürüb. Bundan əvvəlki şikayətində gəlin ərinin ona şiddət göstərməsi nəticəsində yaranan stres səbəbindən bətnindəki övladını itirdiyini deyən qadın indi də ərinin göstərdiyi şiddətdən danışarkən ikinci övladının da vaxtından əvvəl doğulduğunu, üç gün sonra isə xəstəxanada öldüyünü deyib: “İkinci hamiləliyimin yeddinci ayının əvvəli idi. Novxanıda yerləşən restoranda oturmuşduq. Məhəmməd sərxoş olmuşdu. Həmin vaxt dava salıb, sürücüsü və ofisiantların qarşısında əlimi kəsdi. Sabahı gün əlimin açıq yarasını estetik əməliyyat etdirərkən bacısı hadisəni ört-basdır etmək üçün həkim və tibb bacılarına pul təqdim etdi. Pul qarşılığında tibb müəssisəsi hadisəni qeydə almadı və hüquq-mühafizə orqanlarına müraciət etmədilər. Ondan bir həftə sonra Məhəmməd yenə evdə dava saldı. Davadan sonra yaranmış streslə bağlı vəziyyətim pisləşdi və yenidən xəstəxanaya getdik. Orada vaxtından üç ay əvvəl övladım doğuldu. Amma körpə cəmi üç gün yaşadı. Beləliklə, bu övladım da ailədaxili şiddətin qurbanı oldu. İkinci hamiləliyimdə Məhəmməd öz övladını faktiki olaraq öldürdü və mən bunu ona heç vaxt bağışlamayacağam. Hələ Bakıda olanda dəfələrlə Məhəmmədin ailəsinə yalvardım ki, onu həm psixoloji pozğunluğuna, həm də alkoqol asılılığına görə müalicəyə göndərsinlər. Mən də işimi buraxıb ona daim dəstək olardım. Amma ailəsi kömək etmədi, düşündülər ki, təzə gəlinəm və baş çıxarmalıyam. Məzahir Pənahov sadəcə oğluna deyirdi ki, içkini burax və həyat yoldaşına yaxşı bax, lakin heç bir nəticəsi olmurdu. Sonradan Los-Ancelesə köçdük, orada da eyni şeylər təkrarlandı. Nəhayət Bakıya qayıtdım. Burada isə hər kəs soruşurdu ki, niyə Amerikada polisə şikayət etməmişəm, axı orada nə yüksək vəzifə, nə də atasının əlaqələri kömək edər. Əlbəttə, mən ərimdən polisə şikayət edə bilərdim: onu həbs edərdilər, Amerikaya girişi və biznesini beş il müddətinə qadağan edərdilər, mən isə Amerika hökumətinin himayəsini və vətəndaşlığını alardım. Ancaq ilk növbədə mən qayınatam haqqında düşündüm. Onun illərlə qazandığı nüfuzunun zərər görməsini istəmirdim, çünki mən ona çox hörmət edirdim. Mən sakit və dinc yolla boşanmaq istəyirdim, lakin Pənahovların belə davranacaqlarını heç gözləmirdim. Təsəvvür edin, məni nə həddə çatdırıblar ki, mən bu hadisələrlə bağlı media vasitəsilə açıqlama verirəm”.



Pənahova keçmiş ərinin əməlləri ilə bağlı Azərbaycanda hüquq-mühafizə orqanlarına müraciət etdiyini vurğulayıb. Qarşı tərəf - Məhəmməd Pənahov isə ölkədə olmadığından ona yönəlmiş ittihamlara cavab almaq mümkün olmayıb.

Ən əsası isə bütün bunlar baş verərkən MSK sədrinin oğlunun Azərbaycana gələ bilmədiyi barədə də iddialar irəli sürülüb. Bu iddialar da hələ ki, Pənahovlar tərəfindən cavabsız buraxılıb, lakin oğul Pənahovun ortaya atılan ittihamlar fonunda ölkədən kənarda qalmağa davam etməsi və prosesi oradan yönəltməyə çalışması kifayət qədər təəccüb doğurur.

Bəzi ehtimallara görə, oğul Pənahovun Azərbaycana gəlməməsinin, yaxud gəlmək istəməməsinin daha dərin səbəbləri ola bilər. Məsələn, “Azpolitika” MSK sədrinin oğlu ilə onun keçmiş arvadı arasındakı əmlak mübahisəsinə dair məhkəmə qərarını xatırladaraq yazır ki, qərara görə, Pənahovun oğlu keçmiş həyat yoldaşına qiyməti 300 min manat təşkil edən qızıl-zinət əşyaları qaytarmalıdır. Sitat: “Doğrusu, Azərbaycan cəmiyyəti iri məmurların böyük bizneslərə, saysız-hesabsız mülklərə, xaricdə bank hesablarına, milyonlara, on milyonlara sahib olmasına o qədər öyrəşib ki, artıq onlardan hansınınsa övladı ilə bağlı bu cür “bahalı söhbətlər” üzə çıxanda, heç kim buna məhəl qoymur. Məsələn, heç kim soruşmur ki, Məzahir Pənahovun “əlini ağdan qaraya vurmayan” oğlunda 300 min manatlıq qızıl-zinət əşyası hardandır? Pənahov, yaxud onun oğlu bu pulun rəsmi mənbəyilə bağlı hesabat verə bilərmi? Deyə bilərmi ki, bu kah-kəşanın mənbəyi nədir? Minimum əmək haqqının 400 manat olduğu bir ölkədə MSK sədrinin oğlunda 300 min manatlıq təkcə qızıl-zinət əşyası hardandır? Bu məbləğ Pənahovun neçə illik rəsmi maaşıdır? Əlbəttə ki, 300 min manat belələri üçün böyük pul deyil - “semiçka pulu”dur. Həmin bu qızıl-zinət əşyaları da sözsüz ki, Pənahovun özü bir tərəfə, təkcə oğlunun malik olduğu sərvətlərin yüzdə neçəsə faizi ola, ya olmayag Ancaq ən acınacaqlısı odur ki, çoxdan adiləşmiş bu mənzərəyə görə MSK sədri də daxil olmaqla, heç kim, heç bir məmur xəcalət çəkmir...”

Qeyd edək ki, “Unikal” bir müddət əvvəl Məzahir müəllimin yaşı ilə əlaqədar yaxın aylarda təqaüdə göndəriləcəyini yazmışdı. Onun oğlunun öz adı ətrafında bu qədər hay-küyə baxmayaraq ölkəyə qayıtmaması, bəlkə, bir az da bununla bağlıdır. Mümkündür ki, oğul Pənahov atası vəzifədən gedəcəyi təqdirdə ona yönəldilən ittihamlarla bağlı ciddi başağrısı yaşaya biləcəyini düşünür...

***Toğrul Əliyev***

# "Bu, Rusiyanın məsuliyyət daşıdığının etirafıdır"

## Hər bir halda Azərbaycan süni şəkildə münasibətlərin gərgin qalmasını lüzum bilmir

***Oktyabrın 9-da Düşənbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olub. Əsas mövzu AZAL təyyarəsinin kənar müdaxilə nəticəsində qəzaya uğraması olub. Putin görüşə bu məsələ ilə başlamağı təklif edib və bir daha həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verib. Putin faciənin Rusiya səması üzərində baş verdiyinə görə üzr istədiyini xatırladıb.***

Rusiya Prezidenti həmçinin vurğulayıb ki, hadisə ilə bağlı bütün vəzifəli şəxslərin fəaliyyətinə hüquqi qiymət veriləcək və qəzaya səbəb olan bütün amillər obyektiv şəkildə araşdırılacaq. istintaqa bütün lazımi dəstəyi verdiyini və bu faciənin hərtərəfli araşdırılmasına açıq olduğunu bildirib. Putin araşdırmanın yekunlaşmadığına işarə edirsə, raketin təyyarəyə dəymədiyini niyə iddia edir? Hər halda Azərbaycan Prezidentinə müraciətində "Hadisənin Rusiyanın hava məkanında baş verməsinə görə Sizdən üzr istəyirəm. Həlak olanların ailələrinə ən səmimi başsağlığımı çatdırıram" deyən Putin Rusiyanın AZAL təyyarəsinin qəzaya uğraması ilə bağlı bütün məmurların hərəkətlərinə hüquqi qiymət verəcəyini və ölkəsinin bu faciəli hadisə ilə əlaqədar zərərçəkənlərə kompensasiya ödəcəyini də vurğulayıb. Bu isə Azərbaycanın mülki təyyarəsinin vurulmasına və insanlarımızın həlak olmasına görə rinə yönəltməyə çalışdı. Bu, məsuliyyəti müəyyən qədər də olsa, bölüşdürmək məqsədi daşıyır. Putin bildirdi ki, Rusiyanın hava məkanına müdaxilələr olub və Hərbi Hava Qüvvələri buna qarşı atəş açıb. AZAL-ın təyyarəsi hədəf kimi seçilməsə də, atəş açılan vaxt qəlpələrə tuş gəlib.

Azərbaycan da qəza baş verən ilk gündən bu mövqedən çıxış edirdi: Rusiya AZAL-ın təyyarəsini hədəf olaraq seçməyib, lakin HHQ-nin səhvləri nəticəsində böyük faciə baş verdi və buna görə Moskva Bakının üç haqlı tələbini qəbul etməlidir.

1. Baş verənlərə görə Azərbaycandan üzr istənilməli;
2. Kompensasiya ödənilməli;
3. Günahkarlar cəzalandırılmalıdır;



O, kompensasiya ilə bağlı da müvafiq addımların atılacağını diqqətə çatdırıb.

Xatırladaq ki, qəza dekabrın 25-də Qazaxıstanın Aktau şəhəri yaxınlığında baş verib. Təyyarənin göyərtəsində olan 67 nəfərdən 38-i həlak olub, 29 nəfər isə sağ qalıb. İlkin məlumatlara görə, təyyarə Rusiyanın Qroznı üzərindəki hava məkanında baş verən fiziki və texniki xarici müdaxilə nəticəsində qəzaya uğrayıb.

Politoloq Elxan Şahinoğlu məsələylə bağlı "Unikal"a fikirlərini bildirərkən deyib ki, Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevlə Düşənbədəki görüşündə AZAL təyyarəsinin vurulmasına görə məsuliyyəti yenə Ukraynanın üzərinə qoymağa çalışıb: "Onun sözlərindən çıxan nəticə budur ki, Çeçenistan səmasında Ukrayna dronları olmasaydı, Rusiya hərbçiləri Azərbaycanın mülki təyyarəsinə atəş açmayacaqdılar. Putin təyyarənin raketlə vurulması faktını da qəbul etmir. Onun sözlərinə görə təyyarəyə raketin qəlpələri dəyib. Kreml sahibi eyni zamanda Rusiyanın Rusiyanın məsuliyyət daşıdığının etirafıdır. Putin hadisədən 10 ay sonra söylədiklərini faciənin ilk günlərində desəydi, münasibətlər gərginləşməzdi. Münasibətlərin normallaşması Putinin təyyarənin vurulmasına görə rusiyalı məmurların hüquqi qiymət verəcəyi və kompensasiyaların ödəniləcəyi vədinin necə yerinə yetiriləcəyindən asılı olacaq. Ümid edək ki, Putin məmurlarına Rusiyada azərbaycanlıların incidilməsi, bəzi hallarda zorakılığa məruz qalması hallarına son qoyulmasını da tapşıracaq. Bütün hallarda münasibətlərdəki gərginlik hər iki ölkənin maraqlarına cavab vermir".

Siyasi şərhçi Asif Nərimanlı isə hesab edir ki, Rusiya AZAL-ın vurulan təyyarəsi ilə bağlı Azərbaycanın bütün tələblərini qəbul edib. O bildirib ki, Düşənbə görüşündə Əliyevlə görüşən Putin AZAL-ın təyyarəsinin vurlmasına görə başsağlığını bir daha çatdırdı və hadisə baş verdiyi vaxt üzr istədiyini xatırlatdı: "Hadisə ilə bağlı araşdırmanın yaxın vaxtda başa çatacağını deyən Putin diqqəti "kənar müdaxilə" üzə

Putinin hadisə baş verən vaxt Əliyevlə telefon danışığında üzr istəməsi ilə birinci tələb yerinə yetirilsə də, Moskva digər iki tələbə məhəl qoymamaq siyasəti sərgiləyirdi. Buna paralel olaraq, tələblərindən geri çəkilməsi üçün informasiya və siyasi müstəvidə Bakıya təzyiqlər edildi. Hərçənd, Əliyev bütün təzyiqlərə baxmayaraq, ilk gündə sərgilədiyi mövqeyindən geri çəkilmədi. Və nəhayət, Azərbaycanın iki tələbinin - kompensasiya ödənilməsi və günahkarların cəzalandırılması, icra ediləcəyi Əliyevlə görüşdə birbaşa Putin tərəfindən qəbul olundu. Bu nəticənin əldə edilməsində Əliyevin prinsipial mövqeyi həlledici amil oldu".

Milli Məclisin Azərbaycan-Rusiya Parlamentlərarası İşçi Qrupunun üzvü Rasim Musabəyov modern.az-a açıqlamasında bildirib ki, Putinin təyyarənin vurulması ilə bağlı etirafı münasibətlərin daha da pisləşməsinin qarşısını almağa və qarşılıqlı fayda verən layihələrin davam etdirilməsi üçün müsbət təsir göstərəcək: "Mən yalnız bu görüşlə münasibətlərin əvvəlki duruma qayıdacağının mümkün olacağını düşünmürəm. Putinin təyyarənin vurulması ilə bağlı etirafının münasibətlərin pisləşməsinin qarşısının alındığı bir halda ikitərəfli münasibətlərdə qarşılıqlı fayda verən layihələrin davam etdirilməsi üçün müsbət təsir göstərə biləcəyini düşünürəm".

Deputat vurğulayıb ki, Rusiyanın artıq üzrxahlıq etdiyini hesab etmək olar: "Hazırda kompensasiyanın verilməsi və hadisəni törədənlərin cəzalandırılması məsələləri var. Üstəlik onların vəzifələrini də artırıblar. Hər bir halda bu istiqamətlərdə Rusiya tərəfindən müsbət addımlar atılır. Azərbaycan süni şəkildə münasibətlərin gərgin qalmasını lüzum bilmir. Rusiya öz günahını etiraf edib, lazımi bütün addımları atdığı halda hesab edirəm ki, münasibətlərimizin pisləşməsinin demək olar ki, qarşısı alına bilər. Nələri düzəldib, irəliyə doğru addımlar atmaq məsələləri isə sonranın işidir".

***Seymur Əli***



# Azərbaycanla Slovakiya arasında hərbi-texniki sahədə əməkdaşlıq müzakirə olundu

***Oktyabrın 9-da müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə rəsmi səfərdə olan Slovakiya Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general Daniel Zmekonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, əvvəlcə qonaqlar Fəxri xiyabana gələrək Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarlarını ziyarət edib, önünə əklil və gül dəstələri qoyaraq xatirələrinə dərin ehtiram nümayiş etdiriblər.

Sonra nümayəndə heyəti Zəfər parkını ziyarət edib, Zəfər abidəsinin önünə əklil qoyub.

Azərbaycan Ordusunun Baş Qərargahında təşkil edilən rəsmi qarşılanma mərasimində Baş Qərargah rəisləri fəxri qarovul dəstəsinin önündən keçiblər. Azərbaycan və Slovakiyanın Dövlət himnləri səsləndirilib. Slovakiyalı qonaq protokola uyğun olaraq "Şərəf kitabı"nı imzalayıb.

İki ölkənin Baş Qərargah rəisləri arasında keçirilən görüşdə general-polkovnik K.Vəliyev onları ölkəmizdə görməkdən məmnunluğunu bildirib. O, Azərbaycanla Slovakiya arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu vurğulayıb.

General D.Zmeko bu cür səfərlərin iki ölkə arasında hərbi əlaqələrin genişləndirilməsi və ordularımızın inkişafı baxımından əhəmiyyətli olduğunu diqqətə çatdırıb.

Görüşdə, həmçinin Azərbaycanla Slovakiya arasında müdafiə sahəsində maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Sonra nümayəndə heyəti Kibertəhlükəsizlik Mərkəzində olub. Burada onlara Azərbaycan Ordusunun arsenalındakı müasir silah sistemi və informasiya texnologiyaları vasitələrinin kibertəhlükəsizliyinin təmin edilməsi üzrə icra olunan tədbirlər, eləcə də kibertəhdidlərə qarşı süni intellekt əsaslı kibermüdafiə vasitələri barədə ətraflı məlumat verilib.

Ölkəmizə rəsmi səfər çərçivəsində qonaqlar Hərbi Hava Qüvvələrinin (HHQ) Döyüşü İdarəetmə Mərkəzində yaradılmış şəraitlə tanış olublar. Onlara mərkəzin strukturu, iş prinsipi və fəaliyyət istiqaməti ilə bağlı brifinq təqdim edilib.

Slovakiya hərbi nümayəndə heyəti HHQ-nin hərbi hissələrindən birində də olub. Qonaqlara hərbi hissə haqqında ətraflı məlumat verilib, silahlanmada olan aviasiya və texniki vasitələrin nümunələri nümayiş etdirilib.

# İlham Əliyev dövlət başçılarının qeyri-rəsmi şam yeməyində



***Oktyabrın 9-da Düşənbədə MDB dövlət başçıları qeyri-rəsmi şam yeməyinə dəvət olunublar.***

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edir.

# Ceyhun Bayramov tacikistanlı həmkarı ilə görüşdü



***Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov tacikistanlı həmkarı Sirojiddin Muhriddinlə görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin "X" hesabında paylaşım edilib. Tərəflər Düşənbədə Müstəqil Dövlətlər Birliyinin (MDB) Xarici İşlər Nazirləri Şurasının iclası çərçivəsində bir araya gəliblər.

# Tahir Budaqov Venesuelanın Azərbaycandakı səfiri ilə görüşdü



***Oktyabrın 9-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Venesuela Bolivar Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Kristofer Alberto Martinez Berroteran arasında görüş keçirilib.***

"Unikal" xəbər verir ki, görüşdə dövlət başçılarının iki ölkə arasında əlaqələrin inkişafına mühüm önəm verdikləri, müxtəlif istiqamətlərdə, o cümlədən energetika, təhsil, gənclər və idman, turizm, mədəniyyət və digər sahələrdə səmərəli əməkdaşlıq üçün geniş potensialın mövcud olduğu qeyd edilib.

Azərbaycan ilə Venesuelanın qlobal müstəvidə, o cümlədən Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatlar səviyyəsində işbirliyini diqqət mərkəzində saxlayaraq bir-birinin mənafelərini müdafiə etdikləri, eləcə də ərazi bütövlüyü və suverenliyini dəstəklədikləri vurğulanıb. Ədalətli geosiyasi nizamın tərəfdarı olan hər iki ölkənin beynəlxalq hüquq normalarına əsaslanmaqla dünya miqyasında neokolonializmin bütün təzahürlərinə qarşı qətiyyətlə mübarizə apardıqları bildirilib.

Görüşdə Yeni Azərbaycan Partiyası ilə Venesuela Vahid Sosialist Partiyası arasında gələcək əməkdaşlıq perspektivləri də müzakirə olunub. Ölkələrimizin səmimi dostluq münasibətlərinin hakim partiyalar arasında əlaqələrin yaradılması və inkişaf etdirilməsi üçün əlverişli zəmin formalaşdırdığı qeyd olunub, gənclər arasında təmasların sıxlaşdırılmasının əhəmiyyəti diqqətə çatdırılıb. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# Putin-Əliyev görüşündə razılıq: Kompensasiya ödənəcək, günahkarlar cəzalanacaq

***Oktyabrın 9-da Düşənbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olub.***



"Unikal" xəbər verir ki, görüşdə çıxış edən Prezident Vladimir Putin dedi:

-Hörmətli İlham Heydər oğlu.

Bu yaxınlarda biz - doğrudur, Pekində hər halda qısa da olsa görüşdük. Buna qədər bir neçə dəfə telefonla danışmışıq.

Görüşümüzə daha həssas mövzu - bizim hava məkanında baş verən aviasiya faciəsi ilə başlamaq istərdim. Artıq həmin vaxt bizim aramızda birinci telefon danışığı əsnasında mən faciənin məhz Rusiya səmasında baş verdiyinə görə üzr istədim, həm də həlak olanların ailələrinə ən səmimi başsağlığı verdim. İstərdim ki, bütün bunları təkrar edim, yenidən söyləyim və qeyd edim, biz sözsüz ki, razılaşdığımız kimi, istintaqa hər cür kömək göstəririk.

İstintaq başa çatmaq üzrədir və indi ümumilikdə bu faciənin, bu qəzanın səbəbləri barədə danışmaq olar. O, bir neçə amillə əlaqədardır.

Birincisi, ondan ibarətdir ki, səmada Ukraynanın pilotsuz uçuş aparatı vardı. Biz faciə günü gecə Rusiya Federasiyasının sərhədini keçən üç belə pilotsuz aparatını eyni vaxtda izləyirdik.

İkinci səbəb Rusiyanın hava müdafiə sisteminin özündə texniki nasazlığın olmasından ibarətdir. Buraxılan iki raket birbaşa təyyarəyə dəyməyib, - əgər bu baş verseydi, təyyarə yerindəcə məhv olardı, - raketlər partlayıb, ola bilər ki, bu, bir neçə metr məsafədə, təqribən 10 metrlik məsafədə özünü məhv etmək olub. Ona görə də təyyarə zədələnib, amma əsas məsələ odur ki, məhvedici döyüş elementləri ilə deyil, yəqin raketin parçalarının özü ilə. Məhz bu səbəbdən pilot hadisəni quş sürüsü ilə toqquşma kimi qiymətləndirib, bu barədə rusiyalı dispetçerlərə məlumat verib, bütün bunlar "qara qutular"da qeyd olunub. Həmçinin ona təklif olunub ki, - bu da "qara qutular"da var, yaxşı eşidilir, - Mahaçqalaya eniş etsin, amma o, qalxdığı aeroporta qayıtmaqla bağlı qərar qəbul edib, sonra isə Qazaxıstana uçub. Bununla belə, fakt faktlığında qalır.

Faciənin səbəblərini indi Sizə təqdim etdim. Bütün bunlar baş verənlərin texniki xarakteristikasının dəqiq analizindən və "qara qutular"ın nəticələrinin saniyəbəsaniyə yoxlanılmasından sonra sənədlərdə öz əksini tapıb.

Biz Sizinlə bu mövzunu sonradan müzakirə etdik. Sözsüz ki, belə hallarda, bu cür faciəli vəziyyətlərdə tələb olunduğu kimi, Rusiya tərəfindən kompensasiya üzrə hər şey ediləcək və bütün vəzifəli şəxslərin hərəkətlərinə hüquqi qiymət veriləcək.

Əlbəttə, bu faciə ilə bağlı ailələrin dəstəklənməsinə, onlara mənəvi dəstək verilməsinə yönəlmiş bütün sözlər belə hallarda əsas problemi həll etmir - faciə nəticəsində həlak olmuş insanları həyata qaytarmaq mümkün deyil.

Amma bizim borcumuz, bir daha təkrar edirəm, biz Sizinlə əvvəldən baş verənlərə obyektiv qiymət vermək və əsl səbəbləri üzə çıxarmaq barədə razılaşmışdıq. Ancaq bu, müəyyən vaxt tələb edir. Qəti nöqtəni qoymaq üçün yəqin ki, hələ bir az vaxt tələb olunacaq. Amma ümumilikdə, mən Sizə əsasən elə bu görüşümüz ərəfəsində - dünən, srağagün aldığım məlumatları çatdırdım. Hətta düzünü desək, bu gün gecə Moskvaya zəng etdim və əlavə hər hansı detalları olduğunu soruşdum. Demək olar ki, Sizə mənə məlum olanların hamısını danışdım. Bu, birinci hissədir.

İkincisi. Qeyd etmək istərdim ki, buna baxmayaraq, bizim maraqlarımız, qarşılıqlı maraqlarımız bir çox sahələrdə üst-üstə düşür və çox yaxındır. Əlbəttə, hər şeydən əvvəl bu, iqtisadi-ticari əlaqələrə aiddir. Bu faciə ilə əlaqədar indi danışdığım bütün nüanslara, onunla əlaqədar hansısa məsələlərə baxmayaraq, iqtisadi-ticari əlaqələr inkişaf edib və uğurla inkişaf edir. Keçən il ticarət dövriyyəsində təqribən 6 faiz, bu il isə 16 faizdən çox artım olub. Bu, çox yaxşı göstəricidir.

Sizin bu mövzuya diqqətiniz sayəsində bizim humanitar əlaqələrimiz həmişə yüksək səviyyədə olub. Ancaq biz indi bu barədə hələ danışacağıq. Birincisi, bununla bağlı Sizə minnətdarıq, ikincisi, əlbəttə, özümüz də hər şeyi edəcəyik ki, bu dinamika qorunub saxlanılsın.

Təbii ki, bizim XİN-lər regionda vəziyyətlə bağlı, ümumilikdə beynəlxalq arenada şəraitlə əlaqədar həmişə bir-biri ilə çox sıx fəaliyyət göstərib. Ümidvaram ki, bu əməkdaşlıq, sadəcə, bərpa olunmayacaq, həm də bizim münasibətlərimizin, müttəfiqliyimizin ruhunda davam edəcək. Biz bunu heç vaxt unutmuruq, o qədər də uzaq olmayan keçmişdə imzalanan müqaviləni xatırlayırıq və öz tərəfimizdən hər şeyi edəcəyik ki, onun bütün əsas müddəaları həyata keçirilsin.

Sizə təşəkkür edirəm.

***

Sonra çıxış edən Prezident İlham Əliyev dedi:

-Vladimir Vladimiroviç, çox sağ olun.

Əvvəlcə görüşə görə Sizə təşəkkürümü bildirmək istərdim. Siz qeyd etdiyiniz kimi, biz Pekində Sizinlə qısaca görüşdük, həmçinin elə iki gün əvvəl doğum gününüzlə əlaqədar Sizə zəng etdim. Fürsətdən istifadə edərək, Sizi bir daha təbrik etmək və Sizə, yaxınlarınıza, dost Rusiya xalqına ən xoş arzularımı çatdırmaq istərdim.

Əlbəttə, Azərbaycan Hava Yollarının təyyarəsinin keçən ilin dekabrında qəzaya uğraması ilə bağlı faciə haqqında ətraflı informasiyaya görə xüsusilə təşəkkür edirəm. Biz Sizinlə dərhal təmasa keçdik. Xatırlayırsınızsa, bu faciəli gündə mən Sankt-Peterburqda görüşə uçurdum və mənə məlumat verildikdə təyyarədən dərhal Sizə zəng etdim və bir-birimizə başsağlığı verdik. Həmçinin Sizdən MDB-nin qeyri-rəsmi sammitində iştirak edən həmkarlarımıza da obyektiv səbəblərdən bu tədbirdə iştirak edə bilməyəcəyimi çatdırmağınızı xahiş etdim.

Eyni zamanda, bu vəziyyəti nəzarətdə saxladığınıza görə Sizə təşəkkür etmək istərdim. Sizinlə dəfələrlə fikir mübadiləsi aparmışıq, həmçinin komandalarımızın üzvləri daim təmasdadırlar. Siz şəxsən istintaqın gedişinə nəzarət edirsiniz və bizim heç bir şübhəmiz olmayıb ki, o, bütün məsələləri obyektiv araşdıracaq. Ona görə də bizim görüşümüzdə məhz bu məsələyə aydınlıq gətirməyi zəruri hesab etdiyiniz üçün Sizə bir daha minnətdarlığımı ifadə etmək istərdim.

Siz qeyd etdiyiniz kimi, bu il təkcə iqtisadi-ticari münasibətlər deyil, həm də bütün istiqamətlər üzrə əlaqələr uğurla inkişaf edir, əmtəə dövriyyəsinin artımında yaxşı dinamika mövcuddur. Həmçinin bütün başqa istiqamətlər üzrə heç bir yerdə hər hansı gecikmə və yaxud geriləmə olmayıb. Əksinə, Sizinlə təsdiq etdiyimiz yol xəritələri uğurla həyata keçirilir.

Həmçinin bu yaxınlarda Rusiya-Azərbaycan Hökumətlərarası Komissiyasının iclası keçirilib, həmsədrlər təkcə iqtisadi-ticari deyil, bütün məsələlərin geniş spektrini ətraflı müzakirə ediblər.

Əlbəttə, bu gün gündəliyi bir daha nəzərdən keçirmək üçün yaxşı imkandır. O, kifayət qədər geniş və müsbətdir. Beləliklə, bu informasiyaya görə bir daha təşəkkür edirəm və əminəm ki, bu gün cəmiyyətlərimizə göndərdiyiniz mesajlar da müsbət qarşılanacaq.

Prezident Vladimir Putin: Sağ olun.

Prezident İlham Əliyev: Sağ olun.

38_27 IYUl-QARA.qxd 10/9/2025 9:54 PM Page 6



# İlham Əliyev konfrans iştirakçılarına müraciət etdi



***Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 9-da Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının təşkilatçılığı ilə İtkin düşmüş şəxslər üzrə Bakı Dialoqu çərçivəsində "İtkin düşmüş şəxslər probleminin həlli üçün səylərin birləşdirilməsi və əməkdaşlığın genişləndirilməsi" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarına müraciət ünvanlayıb.***

"Unikal" xəbər verir ki, müraciəti Dövlət Komissiyasının sədri Əli Nağıyev səsləndirib.

Müraciətdə deyilir:

"Hörmətli konfrans iştirakçıları!

Sizi itkin düşmüş şəxslər mövzusuna həsr olunmuş beynəlxalq konfransda səmimi-qəlbdən salamlayıram.

İtkin düşmüş şəxslər məsələsi dünyanı narahat edən mühüm bəşəri problemlərdən biridir. İllər keçdikcə bu problem aktuallığını itirməmiş, əksinə, daha kəskin xarakter almışdır. Birləşmiş Millətlər Təşkilatının məlumatına görə son iyirmi il ərzində itkin düşənlərin sayında 2024-cü ildə ən yüksək artım qeydə alınmış, həmin il münaqişə bölgələrində 57 minə yaxın insan itkin düşmüşdür. Bu, silahlı münaqişələr dövründə beynəlxalq hüquq normalarına məhəl qoyulmamasının acı nəticəsidir.

Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə başlamış və 30 ildən artıq davam etmiş müharibənin doğurduğu humanitar faciələrdən biri də içərisində uşaqlar, qadınlar və ahılların olduğu 4000-dək azərbaycanlının itkin düşməsidir. Torpaqlarımızın işğaldan azad edilməsindən sonra həmin ərazilərdə 29 kütləvi məzarlıq aşkar edilib. Məzarlıqlardan tapılmış meyitlərin qalıqlarının ekspertizası qətlə yetirilmiş azərbaycanlıların dəhşətli işgəncələrə məruz qoyulduqlarını sübut edir. Bu, çox ağır mənzərədir. İnsanların kütləvi şəkildə, işgəncə ilə öldürülməsi, qeyri-insani qaydada basdırılması və cinayətin izlərinin itirilməsi beynəlxalq hüquq normalarının ciddi pozuntusudur.

Qarabağ müharibəsində itkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilməsi daim qarşımızda duran önəmli vəzifələrdən olmuşdur. 1993-cü ildən Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası fəaliyyət göstərir. Bu günə qədər müharibə dövründə itkin düşmüş 187 nəfərin şəxsiyyəti eyniləşdirilmiş və onlar dəfn ediliblər.

2025-ci il avqustun 8-də Vaşinqtonda Amerika Birləşmiş Ştatları Prezidentinin iştirakı ilə Azərbaycan və Ermənistan arasında Birgə Bəyannamənin imzalanması və sülh sazişinin paraflanması böyük tarixi hadisə olmaqla, Cənubi Qafqaz regionunda davamlı sülhün və sabitliyin təmin edilməsi üçün yeni imkanlar yaradır. Sülh sazişinə münaqişə dövründə itkin düşmüş şəxslərlə bağlı xüsusi bir maddənin salınması məsələyə verdiyimiz önəmin təzahürüdür və sazişdə də təsbit olunduğu kimi bu şəxslərin taleyinə aydınlıq gətirilməsi tərəflər arasında barışıq və etimad mühitinin yaradılmasında əhəmiyyətli vasitədir. Bu baxımdan, Ermənistan tərəfi azərbaycanlıların qətlə yetirilərək basdırıldığı digər kütləvi məzarlıqların yeri barədə Azərbaycan tərəfinə məlumat verməlidir.

Azərbaycan dövləti itkin düşmüş şəxslər probleminə beynəlxalq birliyin diqqətinin artırılması üçün böyük səy göstərir. Artıq üçüncü dəfədir ki, ölkəmiz itkin düşmüş şəxslər mövzusuna həsr olunmuş beynəlxalq tədbirə ev sahibliyi edir. Azərbaycan itkin düşmüş şəxslərlə bağlı BMT Baş Assambleyasında qətnamələrin qəbul edilməsi üzrə 2002-ci ildən təşəbbüslərlə çıxış etməklə, dövlətləri və beynəlxalq təşkilatları bu istiqamətdə lazımi tədbirlər görməyə təşviq edir. Zənnimcə, BMT bu sahədə səylərini daha da artırmalıdır.

Əminəm ki, bu konfrans çərçivəsində keçiriləcək müzakirələr itkin düşmüş şəxslər probleminin həlli istiqamətində beynəlxalq əməkdaşlığın gücləndirilməsinə mühüm töhfə verəcək.

Bir daha sizi salamlayır və konfransın işinə uğurlar arzulayıram".

# Azərbaycan Maltada ECMT-in Yol Nəqliyyatı Qrupunun iclasında təmsil olunub

***Maltada Avropa Nəqliyyat Nazirləri Konfransının (ECMT) Yol Nəqliyyatı Qrupunun növbəti iclası keçirilib.***



"Unikal" xəbər verir ki, toplantıda Azərbaycan da təmsil olunub.

Beynəlxalq Nəqliyyat Forumunun Baş katibi Yunq Ta Kim çıxışında Azərbaycanın təşkilatda prezidentliyi dövrü üçün müəyyənləşdirdiyi prioritetlər barədə danışıb. Qeyd edib ki, ECMT-nin coğrafiyasının genişlənməsi həmin prioritetlərdən biridir və Yol Nəqliyyatı Qrupunun iclası bu baxımdan məhsuldar dialoqa şərait yaradır. İclas, həmçinin yol nəqliyyatında rəqəmsallaşma, davamlılıq və regionlararası əlaqələrin gücləndirilməsi istiqamətində növbəti addımlar üçün mühüm zəmin formalaşdırır.

Toplantının yekununda vacib nəticələr əldə edilib. Buraya 1 yanvar 2026-cı il tarixində istifadəyə veriləcək ECMT Rəqəmsal Sisteminin funksionallığının genişləndirilməsi və milli orqanlarla daşıyıcılar arasında daha səmərəli inteqrasiyanın təmini, yeni sistemə keçid dövründə qısa yumşaldıcı müddətin tətbiqi kimi məsələlər daxildir. İclasda 2027-ci ildən etibarən sıfır emissiyalı nəqliyyat vasitələrinin ECMT Kvota sisteminə daxil edilməsi barədə də qərar qəbul olunub.



# Mikayıl Cabbarov Məhəmməd Alşaya ilə görüşüb

***Azərbaycan Küveytin və dünyanın aparıcı brend françayzinq operatorlarından olan "Alshaya Group" şirkəti ilə rəqəmsal ticarət və innovativ yanaşmalar sahəsində potensial əməkdaşlıq imkanlarını müzakirə edib.***

"Unikal" xəbər verir ki, bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında bildirib.

Nazir qeyd edib ki, bununla bağlı müzakirələr Küveytə işgüzar səfər zamanı şirkətin icraçı sədri Məhəmməd Alşaya ilə keçirilmiş görüşdə aparılıb: "Görüşdə qlobal biznes mühitində yeni imkanlar, həmçinin qabaqcıl təcrübələrin ölkəmizə transferi barədə fikirlərimizi bölüşdük".

# Ədalət Həsənov: "Sümük qalıqları təsirə məruz qaldığına görə DNT analizi çətinləşir"

***İşğaldan azad edilmiş ərazilərdə 800-ə yaxın şəxsə məxsus sümük qalıqları müəyyən edilib.***



Bunu Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin baş direktoru, professor Ədalət Həsənov "İtkin düşmüş şəxslər probleminin həlli üçün səylərin birləşdirilməsi və əməkdaşlığın genişləndirilməsi" mövzusunda keçirilən beynəlxalq konfransda çıxışı zamanı deyib.

O bildirib ki, indiyədək 187 şəhidin qalıqları ailələrinə təhvil verilib.

Ə. Həsənov onu da deyib ki, əsas problem kütləvi məzarlıqlarla bağlıdır:

"Bu problem tək bizdə yox, bütün ölkələrdə var. Çünki bir şəxsə aid sümük qalıqları bir-birindən kilometrlərlə aralı olan kütləvi məzarlıqlarda aşkar olunur. Bundan başqa, işğaldan azad olunmuş ərazilərdən gətirilmiş sümük qalıqları torpağın altında kompakt vəziyyətdə yox, açıq havada, yağışın, qarın, günəşin altında təsirə məruz qaldığına görə, onlarda DNT analizi çətinləşir".

Bildirilib ki, azad edilən ərazilərdə aşkarlanan 327 şəxsə məxsus sümük qalıqları üzərində küt alət və qəlpə yaraları aşkar edilib: "Laboratoriyalarda 327 şəxsə məxsus sümüklərdə aparılan araşdırmalar nəticəsində onlara həyati xəsarətlər yetirildiyi təsdiq edilib".

# Mərkəzi Bank "Mpay"a məcburi göstəriş verdi

***Azərbaycan Mərkəzi Bankı (AMB) ödəniş bazarında fəaliyyət göstərən "Mpay" MMC-yə icrası məcburi göstəriş verib.***

"Unikal" xəbər verir ki, "MPay"də həyata keçirilən planlı yoxlamalar zamanı aidiyyəti qanunvericilik və normativ aktların tələblərinin pozulduğu üzə çıxıb. Odur ki, şirkətə "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" qanunun 3.1-ci və 5.1-ci maddələrində nəzərdə tutulan fəaliyyətlərdən kənar xidmətlərin göstərilməsinin dayandırılması üçün icrası məcburi göstəriş verilib.

38_27 IYUl-QARA.qxd 10/9/2025 9:55 PM Page 7





## Azərbaycanla Gürcüstan müdafiə nazirləri görüşdülər

***Azərbaycanın müdafiə naziri Zakir Həsənovla Gürcüstanın müdafiə naziri İrakli Çikovani arasında görüş keçirilib.***

"Unikal"ın məlumatına görə, İrakli Çikovani deyib ki, Vaşinqtonda Azərbaycanla Ermənistan arasında imzalanmış birgə bəyannamə Cənubi Qafqazda uzunmüddətli sülh və sabitliyin möhkəmlənməsinə mühüm töhfə verəcək.

O, Gürcüstan tərəfinin regional əməkdaşlığın inkişafına töhfə verməyə hazır olduğunu bir daha təsdiqləyib.

İ.Çikovani qeyd edib ki, Gürcüstanla Azərbaycan arasında strateji əməkdaşlıq regionun təhlükəsizliyi və inkişafı üçün əsasdır. O, Gürcüstanın suverenliyi və ərazi bütövlüyünə verdiyi dəstəyə görə general-polkovnik Zakir Həsənova təşəkkür edib.

Nazir Azərbaycanla müdafiə sahəsində ikitərəfli və üçtərəfli formatda əməkdaşlığa diqqət çəkib. Onun sözlərinə görə, 2025-ci il üçün ikitərəfli əməkdaşlıq planında nəzərdə tutulan tədbirlər uğurla planlaşdırılıb və həyata keçirilib.

Söhbət zamanı Azərbaycan hərbçilərinin çoxmillətli birgə hərbi təlimlərdə, eləcə də hərbi təhsil sahəsində planlaşdırılan kurslarda iştirakı məsələsinə də toxunulub.

## Nazir Almaniya səfiri ilə görüşdü

***Kənd təsərrüfatı naziri Məcnun Məmmədov Almaniya Federativ Respublikasının Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri Ralf Horleman ilə görüşüb.***

"Unikal" xəbər verir ki, Məcnun Məmmədov ölkəmizdə qeyri-neft sektorunun inkişafında kənd təsərrüfatının rolu, kənd təsərrüfatı sahəsində həyata keçirilən islahatlar, əldə olunmuş nailiyyətlər, fermerlərə göstərilən dövlət dəstəyi, ölkəmizdə mövcud olan əlverişli investisiya mühiti, biznes üçün yaradılmış münbit şərait, eləcə də aqrar sahənin inkişafı üçün müəyyən edilmiş strateji hədəflər barədə görüş iştirakçılarına ətraflı məlumat verib.

Bildirilib ki, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən aqrar sahənin inkişafı prioritet istiqamət kimi elan edilib. Həyata keçirilən aqrar islahatlar kənd təsərrüfatının daha da inkişafını nəzərdə tutur və bu məqsədlə dövlət tərəfindən çox böyük dəstək tədbirləri həyata keçirilir.

Tərəflər Azərbaycan ilə Almaniya arasında aqrar sahədə əməkdaşlıq və hüquq-müqavilə bazasının gücləndirilməsi, Anlaşma Memorandumunun imzalanması və fəaliyyət planının hazırlanması, kənd təsərrüfatı və qida məhsullarının ticarət dövriyyəsinin artırılması, iş adamları arasında əlaqələrin genişləndirilməsi, aqrar sahədə məhsuldarlığın daha da artırılması, torpaq və su resurslarından səmərəli istifadə, kənd təsərrüfatının rəqəmsallaşdırılması, bu sahədə ən müasir texnologiyaların transferi, heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasında mütəxəssis dəstəyi, aqrar sektorda elmi-tədqiqat və təhsil sahələrində təcrübə proqramlarının həyata keçirilmə məsələlərini müzakirə edibiər.

Görüşdə iki ölkə arasında kənd təsərrüfatı sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi üçün böyük potensialın olduğu vurğulanıb.

Görüş zamanı qarşılıqlı maraq doğuran məsələlər barədə geniş fikir mübadiləsi aparılıb.

# Əli Nağıyev Bakıdakı beynəlxalq konfransda iştirak etdi

## DTX rəisi: "İnanırıq ki, Ermənistanla məqsədyönlü təmaslarımız uğurla davam edəcək"

***Oktyabrın 9-da Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının (Dövlət Komissiyası) təşkilatçılığı və müvafiq sahədə fəaliyyət göstərən təsisatların nümayəndələrinin iştirakı ilə İtkin düşmüş şəxslər üzrə Bakı Dialoqu çərçivəsində "İtkin düşmüş şəxslər probleminin həlli üçün səylərin birləşdirilməsi və əməkdaşlığın genişləndirilməsi" mövzusunda növbəti beynəlxalq konfrans keçirilib.***



Öncə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin beynəlxalq konfransın iştirakçılarına müraciəti oxunmuş, daha sonra Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi, Dövlət Komissiyasının sədri Əli Nağıyev çıxış edib.

Xidmət rəisi itkin düşmüş şəxslərlə bağlı artıq üçüncü ildir təşkil olunan beynəlxalq tədbirin məqsəd və əhəmiyyəti barədə məlumat vermiş, Prezident İlham Əliyevə konfransın keçirilməsində göstərdiyi dəstəyə görə minnətdarlığını bildirərək, itkin düşmüş vətəndaşlarımızın taleyinin aydınlaşdırılması məsələsində dövlətimizin başçısının qətiyyətli və prinsipial mövqeyini qeyd edib.

Hazırda Dövlət Komissiyasında 3990 nəfərin itkin şəxs kimi qeydiyyata alındığını, bu vaxtadək işğaldan azad edilmiş ərazilərdə aparılmış qazıntılar zamanı aşkarlanmış 29 kütləvi məzarlıqdan 218 şəxsə aid olduğu ehtimal edilən meyit qalıqlarının müəyyən olunaraq ekshumasiya edildiyini vurğulayan DTX-nin rəisi Əli Nağıyev itkin düşmüş şəxslərdən artıq 187 nəfərinin şəxsiyyətinin eyniləşdirilərək ailələrinə təhvil verildiyini, habelə axtarış-qazıntı işləri nəticəsində Ağdərə rayonunun Ballıqaya kəndi ərazisində növbəti kütləvi məzarlığın aşkarlandığını diqqətə çatdırıb.

Dövlət Komissiyasının sədri 8 avqust 2025-ci il tarixində Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqton şəhərində paraflanmış "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş" layihəsinin 9-cu maddəsinin itkin şəxslərin taleyinin müəyyən edilməsi sahəsində qarşılıqlı fəaliyyətin həyata keçirilməsini nəzərdə tutduğunu, Azərbaycanın və Ermənistanın aidiyyəti dövlət komissiyaları arasında son vaxtlarda mütəmadi əsasda davam edən təmasların, həmçinin müvafiq beynəlxalq qurumlarla əməkdaşlığın genişləndirilməsinin bu işə töhfə verəcəyinə ümidvar olduğunu deyib.

Sonra konfransın mövzusu ilə bağlı digər iştirakçılar çıxış etmiş və panel sessiyalar olmuş, Dövlət Komissiyası ilə Bosniya və Herseqovinanın İtkin düşmüş şəxslər İnstitutu arasında əməkdaşlıq Memorandumunun imzalanması mərasimi keçirilib.

# Kamran Əliyev Səudiyyə Ərəbistanında görüşlər keçirdi

***Xəbər verildiyi kimi, Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Səudiyyə Ərəbistanı Krallığında rəsmi səfərdədir.***

"Unikal" xəbər verir ki, səfər çərçivəsində Baş prokuror Səudiyyə Ərəbistanı Krallığının Nəzarət və Korrupsiyaya Qarşı Mübarizə qurumunun (Nazaha) dəstəyi ilə təşkil edilmiş Yaxın Şərq və Şimali Afrika regionu (MENA) üzrə cinayət yolu ilə əldə edilmiş əmlakın bərpası sahəsində fəaliyyət göstərən qurumların Şəbəkəsinin təsis konfransında iştirak edib.



30-dan artıq yurisdiksiyanı təmsil edən 200-dən artıq nümayəndənin qatıldığı tədbir zamanı çıxış edən Baş prokuror mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qətiyyətlə həyata keçirilən ardıcıl tədbirləri, o cümlədən qanunvericilik bazasının təkmilləşdirilməsini, hüquq-mühafizə sistemində aparılmış genişmiqyaslı islahatları, cinayətkarlığın bütün növ və formalarına, mütəşəkkil cinayətkarlığın təhlükələrinə qarşı görülmüş işləri xüsusi vurğulayıb.

Qeyd olunub ki, cinayət yolu ilə əldə edilmiş əmlakların ölkələrin maliyyə sisteminin sabitliyinə ciddi təhlükə törədir və təhdidə qarşı mübarizədə qlobal səylərin birləşdirilməsinin vacibdir.

Baş prokuror eyni zamanda bu istiqamətdə prokurorluq orqanları tərəfindən həyata keçirilmiş tədbirlər barədə də tədbir iştirakçılarını məlumatlandırıb.

Səfər zamanı Baş prokuror tərəfindən xarici həmkarlarla ikitərəfli görüşlər də keçirilib.

BMT-nin Baş katibinin müavini, Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru və Vyana ofisinin rəhbəri xanım Qada Vali ilə keçirilmiş ikitərəfli görüşdə ölkəmizlə qurum arasında həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində münasibətlərin yüksək səviyyədə olması qeyd edilərək birgə əməkdaşlıq formasında həyata keçirilmiş tədbirlər, o cümlədən ötən ilin 13 noyanr tarixində COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən noyabrın 15-də keçiriləcək "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyanın, cari ilin may ayında Bakı şəhərində BMT-nin Korrupsiyaya qarşı mübarizə aparan qurumların qlobal əməliyyat şəbəkəsinin (GlobE) 6-cı iclasının yüksək səviyyədə təşkili xatırlanıb və buna görə ev sahibi kimi ölkəmizə təşəkkür bildirilib.

Həmçinin qarşılıqlı münasibətlərin möhkəmləndirilməsi və ikitərəfli əməkdaşlığın əhəmiyyətini vurğulayaraq, tərəflər gələcəkdə birgə həyata keçirilməsi nəzərdə tutulan digər layihələr barədə fikir mübadiləsi aparılıb.

Görüşlərdə ölkələrimiz arasında yüksək səviyyəli münasibətlər, hüquq mühafizə orqanlarının əməkdaşlığı, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin davam etdirilməsi məsələləri müzakirə olunub.

Tərəflər, həmçinin, transsərhəd cinayətkarlıq və digər çağırışlarla mübarizədə birgə fəaliyyətin gücləndirilməsinin vacibliyini vurğulayıblar.

İkitərəfli görüşlər zamanı cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım, ekstradisiya, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, korrupsiya cinayətləri və qarşılıqlı maraq doğuran digər mövzular ətrafında da səmərəli fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, görüşlərdə Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı fövqəladə və səlahiyyətli səfiri Şahin Abdullayev də iştirak edib.

Nümayəndə heyətinin səfəri başa çatıb.

38_27 IYUl-QARA.qxd 10/9/2025 9:55 PM Page 8



# Yaqub Eyyubov da təqaüdə göndərilir

## Baş nazirin birinci müavini 80 yaşına qədəm qoyur - O, mühüm tədbirdə niyə gözə dəymədi?

***"Unikal" qəzeti olaraq, son sayımızda yazmışdıq ki, yaxın altı ayda Azərbaycanda bir sıra yüksək vəzifəli şəxslərin təqaüdə göndərilməsi gözlənilir. Onlardan biri olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahovun göstərildiyini də qeyd etmişdik. Bildirmişdik ki, gələn ilin martında 75 yaşı tamam olacaq Məzahir müəllim bu münasibətlə dövlət orden-medallarından biri ilə təltif ediləcək və təqaüdə göndəriləcək.***



"Unikal"a daxil olan yeni məlumatda təqaüdə göndəriləcək daha bir yüksək vəzifəli şəxsin Baş nazirin müavini Yaqub Eyyubov olacağı deyilir. Belə ki, yaxın vaxtlarda, daha dəqiq desək oktyabrın 24-də onun 80 yaşı tamam olur. Bu münasibətlə Eyyubovun da dövlət orden-medallarının və ya fəxri adlarının biri ilə təltif edilərək təqaüdə yola salınacağı iddia olunur.

Qeyd edək ki, 80 yaşlı Yaqub müəllim Mingəçevir şəhərində anadan olub, ixtisası inşaat mühəndisidir, texnika elmləri doktoru, professordur. 1994-cü ildə Beynəlxalq Mühəndis Akademiyasının akademiki seçilib.

O, əmək fəaliyyətinə 1964-cü ildə Şmidt adına zavodda tornaçı kimi başlayıb və 1963-1964-cü illərdə Azərbaycan Politexnik İnstitutunun tələbəsi olub. Lakin təhsilini bilinməyən səbəblərdən yarımçıq qoyub, 1964-1967-ci illərdə ordu sıralarında qulluq edib, 1968-1972-ci illərdə yenidən Azərbaycan Politexnik İnstitutunda təhsil alıb. 1970-1972-ci illərdə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinin komsomol komitəsinin katibi, 1972-1974-cü illərdə həmin institutda baş laborant, institutun aspirantı, 1973-1974-cü illərdə institut partiya komitəsi katibinin müavini işləyib. 1975-1997-ci illərdə Azərbaycan Mühəndis-İnşaat İnstitutunda yarımştatla əvəzçilik yolu ilə baş müəllim, dekan müavini, baş müəllim, dosent, dekan vəzifəsini müvəqqəti icra edən, dosent, elmi işlər üzrə prorektor, kafedra müdiri vəzifələrində çalışıb.

1997-ci ildə karyera yüksəlişi başlayan Eyyubov həmin tarixdən 1999-cu ilədək Dövlət Sənayedə İşlərin Təhlükəsiz Görülməsinə Nəzarət və Dağ Mədən Nəzarəti Komitəsinin sədri postunu tutub. 1999-cu ildə Baş nazirin müavini postuna gətirilib, 2003-cü ildən isə Baş nazirin birinci müavinidir.

1993-cü ildən hakim Yeni Azərbaycan Partiyasının üzvü olan Yaub Eyyubov "Şərəf" ordeni (2015), Rusiyanın "Dostluq" ordeni (2015), Belarusun "Şərəf" ordeni (2015), "1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 20 illiyi" yubiley medalı (1965), V.İ. Leninin anadan olmasının 100 illiyinə görə medalı (1971) ilə təltif olunub.

Qeyd edək ki, iki il öncə Yaqub müəllimin səhhətində problemlərin yarandığı barədə məlumat yayılıb. Lakin bu məlumata rəsmi münasibət bildirilməyib.

Ümumiyyətlə isə Y.Eyyubov son illərdə daha çox xarici ölkələrin dövlət və hökumət başçılarının hava limanında qarşılanmasında gözə dəyib.

Xatırladaq ki, Oktyabrın 7-də Qəbələ şəhərində Türk Dövlətləri Təşkilatı (TDT) Dövlət Başçılarının XII Zirvə görüşü keçirilib. Lakin maraqlıdır ki, zirvə görüşünə gələn mötəbər qonaqların qarşılanmasında və yola salınmasında Yaqub müəllim gözə dəyməyib. Tədbirə təşrif buyuran TDT dövlət başçılarını ya mədəniyyət naziri Adil Kərimli, ya da elm və təhsil naziri Emin Əmrullayev qarşılayıb, yaxud yola salıb. Bir sözlə, Baş nazirin birinci müavini özünün ənənəvi ampulasında gözə dəyməyib. Bu da onun təqaüdə göndəriləcəyi yönündə iddialarda həqiqət payının yüksək olma ehtimalını artırır.

Düzdür, Dövlət Protokolunun Əsas Qaydalarına görə, Azərbaycana rəsmi, işgüzar, yolüstü və qeyri-rəsmi səfər edən ali qonaqları Baş nazirin müavinləri, xarici işlər naziri və digər vəzifəli şəxslər də qarşılaya, yola sala bilər. Lakin əvvəllər bu mərasimlərdə bir qayda olaraq Yaqub müəllim diqqət çəkdiyindən, indi onun Qəbələdə görünməməsi maraq doğurur.

Onu da deyək ki, Y.Eyyubov iri biznesə sahib olan məmurlardan sayılır. 2023-cü ildə vitse-premyerin oğlunun adına Latviyanın paytaxtı Riqa şəhərindəki bankda yerləşdirdiyi 1 milyard dolların dondurulması barədə xəbər yayılıb. Bu xəbərə aydınlıq gətirmək üçün "Gununsesi.info"nun əməkdaşı həmin vaxt Yaqub müəllimlə danışıb. Sualı dinləyən Baş nazirin birinci müavini "Nə pul, nə 1 milyardg Kim deyir bunu?" söyləyərək telefonun dəstəyini asıb.

Ümumiyyətlə isə Eyyubovun Azərbaycanın özündə böyük biznesi və saysız-hesabsız daşınmaz əmlakları olması, eləcə də ölkədən xaricə, xüsusilə də Kanadaya yüz milyonlarla vəsait çıxarması barədə əvvəlki illərdə xeyli məlumatlar yayılıb. Onun qardaşının Xorvatiyada nəhəng biznes qurduğuna dair də vaxtilə iddialar irəli sürülüb. Yaqub müəllim isə bütün bu məlumatları nə təsdiq, nə də təkzib edib.

***Toğrul Əliyev***

# Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı müzakirə olunub

***Türkiyədə rəsmi səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov oktyabrın 9-da Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Gülər ilə görüşüb.***



Müdafiə Nazirliyindən verilən məlumata görə, Ankara şəhərində keçirilən görüşdə ölkələrimiz arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyi qeyd olunub.

Müdafiə nazirləri Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının daha da genişləndirilməsinin ölkə başçılarının diqqət mərkəzində olduğunu xüsusi vurğulayıblar.

Əlaqələrimizin möhkəmləndirilməsində bu cür görüşlərin əhəmiyyəti qeyd olunub və bundan sonra da uğurla inkişaf etdiriləcəyi əminliklə bildirilib. İkitərəfli formatda keçirilən görüşdə hərbi, hərbi-texniki, hərbi-təhsil sahələrində əməkdaşlığa dair maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb, həmçinin regional təhlükəsizlik, bölgədə dayanıqlı sülhün, sabitliyin təmin edilməsi yolları və digər mövzular müzakirə edilib.




# Ermənistan hərbi əməliyyatlarda muzdlu döyüşçülər cəlb edib

## Bununla bağlı sənədlər məhkəmədə elan olundu

***Oktyabrın 9-da Bakı Hərbi Məhkəməsində Ermənistan Respublikası vətəndaşlarının ittiham olunduğu cinayət işi üzrə məhkəmə prosesində hərbi əməliyyatlara cəlb edilmiş muzdlu döyüşçülər barədə sənədlər elan olunub.***

Məhkəmədə Azərbaycanın müxtəlif dövlət qurumlarından daxil olmuş məxfi qrifli məktublardan çıxarışlar elan edilib.

2020-ci il oktyabrın 24-nə dair sənədə əsasən, Ermənistan 44 günlük müharibə zamanı döyüş meydanında verdiyi itkiləri kompensasiya etmək üçün Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan silahlı qüvvələrinin tərkibinə əcnəbi vətəndaşları cəlb etməyə ciddi səylər göstərib. Xüsusən Ermənistan hökuməti və üçüncü ölkələrdə olan erməni diaspor təşkilatları tərəfindən erməni icmasının üzvlərinə təcili surətdə Azərbaycanın həmin vaxt işğal altında olan ərazilərində gedən döyüşlərə qoşulmaq barədə çağırışlar edilib. Habelə, xarici dövlətlərdə xüsusi bilet satışı kampaniyaları təşkil olunub, toplanış məntəqələri təyin edilib. Nəticə etibarilə Azərbaycanın həmin vaxt Ermənistanın işğalı altında olan ərazilərində gedən hərbi əməliyyatlarda Fransadan, ABŞ-dan, Suriyadan, Rusiya Federasiyasından və digər ölkələrdən olan əcnəbi terrorçu döyüşçülər iştirak edib. Hərbi əməliyyatlara "VoMA" (İrəvan şəhərində fəaliyyət göstərən hərbi təlim mərkəzi), ASALA və digər terrorçu təşkilatlar da cəlb olunublar.

Fransanın Marsel şəhərindən gəlmiş Artur Oqanisyan 2020-ci ildə 44 günlük müharibədə Ermənistan silahlı qüvvələrinin tərkibində Azərbaycanın Hadrut və Cəbrayıl rayonları ərazilərində aparılan döyüş əməliyyatlarında iştirak edib.

Başqa sənədə əsasən, "ASALA" terror təşkilatının üzvü Gilbert Minasyan və onun rəhbərlik etdiyi 15 nəfərdən ibarət hərbi təcrübəyə malik dəstənin Azərbaycan ərazisində törətdikləri cinayət əməlləri ilə bağlı cinayət işi başlanılıb.

Daha bir sənədə əsasən, Azərbaycanın vaxtilə işğal altında olmuş ərazilərində Azərbaycan Silahlı Qüvvələrinə qarşı Ermənistan silahlı qüvvələri ilə yanaşı, xarici dövlətlərdən (Suriya, Rusiya Federasiyası, İspaniya, Kanada, Fransa, Yunanıstan, Livan, Yaxın Şərq və Latın Amerikası ölkələrindən) gətirilmiş muzdlular və müxtəlif terror təşkilatlarına üzv olan döyüşçülər də iştirak ediblər. Əvvəllər bu kimi muzdlular Ermənistanın hərbi qulluqçularına əsasən kəşfiyyat, diversiya, terror-təxribat və obyektlərin partladılması ilə bağlı təlimlər keçməyə dəvət olunsalar da, sonra birbaşa döyüşlərdə iştiraka cəlb ediliblər.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

38_27 IYUl-QARA.qxd 10/9/2025 9:55 PM Page 9





## Adil Kərimli TÜRKSOY-la əməkdaşlıq məsələlərini müzakirə edib

***Oktyabrın 8-də Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY arasında görüş keçirilib.***

"Unikal" xəbər verir ki, görüşdə oktyabrın 7-də Azərbaycanın Qəbələ şəhərində keçirilmiş Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının XII Zirvə Görüşündə müəyyənləşdirilən yeni vəzifələr və qarşıya qoyulan tapşırıqların icrası ilə bağlı fikir mübadiləsi aparılıb.



Mədəniyyət naziri Adil Kərimli çıxışında TÜRKSOY-la əməkdaşlığa xüsusi önəm verdiklərini, bu əməkdaşlığın ildən-ilə genişlənərək yeni məzmun qazandığını qeyd edib. Nazir türk dünyasının zəngin mədəni irsinin qorunması və təbliği istiqamətində həyata keçirilən ortaq layihələrin əhəmiyyətini vurğulayıb.

TÜRKSOY-un baş katibi Sultan Raev Azərbaycan Mədəniyyət Nazirliyi ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edib, əlaqələrin möhkəmlənməsində göstərilən dəstəyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dərin minnətdarlığını çatdırıb.

Görüş zamanı TÜRKSOY-da Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin yeni təyin olunan nümayəndəsi Vüqar Məmmədov baş katibə təqdim olunub. Qeyd olunub ki, o, yaxın günlərdə vəzifəsinin icrasına başlayacaq.

Tərəflər təşkilatın cari il üzrə fəaliyyət istiqamətləri barədə fikir mübadiləsi aparıb, birgə layihələrin icrasında qarşılıqlı əməkdaşlığın əhəmiyyətini bir daha vurğulayıblar.

# Məmurların gözü qabağında saxta yolla qazanılan milyonlarla manatın şok pərdəarxası!

## Yerin altı ilə "podvallar"ı qarışıq salanların böyük oyunu: "qaranlıq" yerlərdə doldurulan sular da aydınlıqdır? - Saxta içməli sularla bağlı ağlasığmaz təfərrüatlar...

***Xalq inancına görə, su - aydınlıqdır. Bəs xalqın içdiyi, əhaliyə "bulaq suyu", "100 faiz təbii" kimi müxtəlif dəbdəbəli, təmtəraqlı, qulağa xoş gələn adlar altında satılan sular necə, onlar da aydınlıqdırmı?***

"Unikal" qəzeti son vaxtlar çeşidi artan, ancaq təbiiliyi, bu da azmış kimi keyfiyyəti ilə bağlı çox sayda şübhələr dolaşan içməli sular barədə araşdırma hazırlayıb.

Və bu araşdırma zamanı ortaya kifayət qədər düşündürücü məqamlar çıxıb.

### Hər il 1-1,4 milyon insan ölür...

Araşdırmamız nəticəsində məlum oldu ki, saxta içməli su ucbatından hər il orta hesabla 1-1,4 milyon insan ölür. Bəzi illərdə bu göstərici 2 milyonu belə ötür.

Xüsusilə son illərdə saxta içməli su problemi qlobal miqyasda ciddi aktuallıq qazanıb. Əksər ölkələr bu cür sulara qarşı reydlər və təhlükəsizlik xəbərdarlıqlarını intensivləşdiriblər. Çünki bir çox hallarda həmin sulardan istifadə faciəvi sonluqlara gətirib çıxarır. Məsələn, bu yaxınlarda Oman hakimiyyəti İran markalı içməli su səbəbindən iki nəfərin öldüyünü açıqlayıb, ardınca da həmin markanı yerli bazardan çıxarıb. ABŞ-də isə bir kommersiya suyu istehsalçısının satışa təqdim etdiyi suyun tərkibində təhlükəli kimyəvi maddə (hidrazin) tapılıb, həmin maddənin insanların sağlamlığında müxtəlif ağır fəsadlara, ələlxüsus istehlakçıların qaraciyərlərində kəskin zədələnmələrə yol açdığı müəyyənləşdirilib. Nəticədə istehsalçı şirkətə qarşı çoxsaylı məhkəmə iddiaları qaldırılıb.

Və təəssüflər olsun ki, Azərbaycanın içməli su bazarında da vəziyyət ürəkaçan deyil. İllərdir həmin suların keyfiyyəti ciddi mübahisə və müzakirə mövzusudur, arabir ortaya çıxan konkret faktlar isə bu suların keyfiyyətinə dair şübhələrin əsassız olmadığını ortaya qoyur.

### Ən çox içməli su satan şirkət necə borcla işləyir?

Bir müddət öncə məlumat yayıldı ki, "Gədəbəy Mineral Suları" MMC-nin dövlətə külli miqdarda vergi borcu var! Həmin məlumata görə, sözügedən MMC-nin vergi borcu 7.6 milyon manatdan çoxdur (7663266.39 AZN).

Nizamnamə kapitalı 100 AZN, qanuni təmsilçisi Ramil Calal oğlu Qaralov olan bu şirkət bazarda ən çox satılan içməli sulardan birinin - "Slavyanka"nın sahibidir. Şirkətin rəsmi saytında 2004-cü ildə təsis edildiyi bildirilir, " Gədəbəy dağlarının təbii bulaqlarından əldə olunan suyun istehsalı və satışı ilə məşğul olduğu" göstərilir. Sitat: "İlk dəfə Slavyanka kəndində yerləşən "Novlu" bulağın suyu "Gədəbəy" və "Slavyanka" markaları ilə istehlakçılara təqdim olunub, daha sonra digər bulaqlardan istifadə edilməyə başlanılıb".

İstər-istəməz sual yaranır: içməli su bazarının aparıcı şirkətinin necə olur ki, təxminən 8 milyonluq vergi borcu yaranır? Axı məntiqlə bu cür şirkətlərin borc deyə bir dərdi olmamalıdır. Varsa, deməli, onların istehsalı olan içməli suların təbiiliyinə də şübhə ilə yanaşmağa hər kəsin haqqı var.

### "Bulaq suyu" adı altında "krant suyu"...

Bu cür şübhələr qətiyyən əsassız deyil. Fakt lazımdır?

Fakt nə qədər istəsəniz!

Əvvəla, bu günədək aidiyyatı qurumlar tərəfindən aparılan yoxlamalar zamanı ölkənin müxtəlif bölgələrindəki bulaqlardan, yəni "ekoloji təmiz su"dan hazırlanan suların əslində mərkəzləşdirilmiş su sistemindən gələn suları filtr etməklə qablaşdırıldığı müəyyənləşdirilib. Eyni zamanda, bəzi müəssisələrin qida sahəsində normativ hüquqi aktların tələblərinə cavab verməDiyi, qanunvericiliyə zidd olaraq məhsulların üzərində "müalicəvi" sözü yazdırdığı, bu da azmış kimi, ehtiyat su çənlərinin, filtrlərin, qablaşdırma avadanlıqlarının belə müvafiq qaydalara uyğun təmizlənməsi, mexaniki filtrlərin, kömür və qum filtrlərinin dəyişilməsi ilə bağlı qeydiyyatın aparılmasına dair təsdiqedici sənədlərinin olmadığı, qida məhsulları ilə təmasda olan avadanlıqların yuyulması üçün nəzərdə tutulmayan kimyəvi maddədən istifadə edildiyi aşkarlanıb. Qısası, bizə "100 faiz təbii", "bulaq suyu" adı altında sırınan suların əslində "krant suyu" olduğu, üstəlik, həmin "krant sularının" da doğru-düzgün təmizlənmədiyi, filtrdən keçmədiyi ortaya çıxıb. İnternet üzərində kiçik bir axtarış kifayətdir ki, bu barədə bəs deyincə nümunələrlə qarşılaşasan!



İkincisi, satışdakı içməli suyun tərkibini müəyyənləşdirən vacib göstəricilərdən biri PH dəyəridir. Sadə dildə desək, bu göstərici suyun turş, neytral və ya qələvi olduğunu bildirir. PH şkalası 0-dan 14-ə qədərdir və 7 neytral səviyyə hesab olunur. Əgər PH 7-dən aşağıdırsa, su turşudur, 7-dən yuxarıdırsa, qələvidir. Bunu nəzərə alaraq içməli suyun PH dəyəri 6,5 - 8,5 arasında olmalıdır. Çox turş su insan sağlamlığına mənfi təsir edə bilər.

Bir neçə ay öncə fed.az paytaxtdakı market şəbəkələrində satılan su çeşidlərinin PH göstəricisini araşdırmış və məlum olmuşdu ki, bir çox su çeşidlərində bu göstərici ümumiyyətlə göstərilmir. Maraqlıdır ki, bir sıra iri su istesalçıları, məsələn «Bonaqua" brendinin istehsalçısı olan Azerbaijan Coca-Cola Bottlers MMC belə suyun PH tərkibini gizlədənlər sırasında idi.

Bundan başqa, İkar-Qrup MMC-nin istehsal etdiyi "Kəkriz su", "Tac", "Dalğa" sularında, Kəlbəcərdəki "İstisu" mineral su zavodunda istehsal edilən "İstisu" suyunda, Mineral Sular MMC-nin istehsal etdiyi "Vita1000" sularında, Ayan MMC-nin "Çeşmə" sularında, eləcə də Türkiyədən idxal olunan "Erikli Su ve Meşrubat San. ve Tic. A.Ş."nin istehsal etdiyi "Erikli" sularında, "Yaşar Holding"in istehsalı olan "Pinar" sularında, Gürcüstanda buraxılan "IDS Borjomi" şirkətinin istehsalı olan "Borjomi" sularında da PH rəqəminin göstərilmədiyi üzə çıxmışdı.

Bunun səbəbini isə bir o istehsalçılar, bir içməli su bazarına nəzarəti təmin etməli olan aidiyyatı qurumlar, bir də Allah bilir...

### Məmurların gözü qarşısında... görməməzlik!

Sadə vətəndaş bir daşı o birinin üstünə qoymaq istəsə, mütləq böyürdən bir məmur peyda olub ona qanunvericiliyin tələblərini xatırladır. Lakin gəl gör ki, Bakı və Abşeronda saxta "bulaq suyu", "təbii su" istehsalı ilə məşğul olan sexlərin nə sayı var, nə hesabı, buna baxmayaraq onların varlığından istehlakçılar şikayətçi olmasalar, heç bir vəzifəli şəxs nə hikmətdirsə xəbər tutmur!

Məsələn, elə bu ilin iyul ayında Yasamalda zirzəmidə istehsal olunan suyun bir şirkət tərəfindən "bulaq suyu" adı altında satıldığı aydın olmuşdu. Vətəndaşlar tərəfindən iddia olunurdu ki, müxtəlif adlar və markalarda olan su qabları rayonun Ağa Yusif Dadaşov ünvanında beşmərtəbəli binanın zirzəmisində doldurulur. Lakin qablaşdırmanın üzərində təbiət mənzərələri, bulaq, çeşmə və dağ təsvirləri var. Zirzəmidən çəkilən kadrlardan da aydın olurdu ki, su qablarının əksəriyyətinin ağzı açıq, toz içindədir. Ətrafı isə məişət tullantıları bürüyüb.

Çəkiliş aparılan müddətdə zirzəminin qarşısında 4 maşına su yüklənib. Sürücülərin sözlərinə görə, onlar suyu sifarişlə aparırlar.

Məhəllə sakinləri həmin şirkətdən su almadıqlarını deyirlər. Hətta satış üçün aparılan qablardakı suyun isə krantdan doldurulduğunu bildiriblər.

Sonradan aidiyyatı qurumların araşdırması deyilənlərin doğruluğunu ortaya qoymuşdu.

Əksəriyyət əmindir ki, bazarları "podvallarda" doldurulmuş "bulaq suları" ilə zəbt edənlərin arxasında hansısa məmurların müəyyən maraqları dayanır. Yoxsa onlar əhalinin sağlamlığını təhdid edən, istehlakçı hüquqlarını ayaqlar altına atan saxtakarlığa bu qədər rahatca cəsarət edə bilməzlər!...

**(Ardı növbəti sayımızda)**

***Sənan Mirzə***

38_27 IYUl-QARA.qxd 10/9/2025 9:56 PM Page 10



# Teymur Musayev "böyük təmizləməyə" hazırlaşır

## Keçmiş nazirin vəfatından sonra onun kadrlarının aqibəti necə olacaq? - Bəzi vəzifəlilərin kreslosu təhlükədə...

***Məlum olduğu kimi, oktyabrın 3-də Azərbaycanın sabiq səhiyyə naziri, ölkə tibb sisteminin ağsaqqallarından biri Oqtay Şirəliyev uzun sürən xəstəlikdən sonra vəfat edib. Oqtay müəllim 2005-2021-ci illərdə Səhiyyə Nazirliyinə rəhbərlik edib.***

Bakupost.az yazıb ki, onun dövründə yüzlərlə yeni tibb müəssisəsi tikilib, regional xəstəxanalar modernləşdirilib, səhiyyənin struktur sistemi formalaşıb. Həmin illər ərzində



Şirəliyev səhiyyə sistemində unikal, hətta sirli bir təsir mərkəzi də yarada bilmişdi. O, prinsipial, sadiq insan kimi tanınırdı. Birinə etimad göstəribsə, həmin şəxs ona xəyanət etdiyi günə qədər toxunulmaz sayılıb. Məhz bu xüsusiyyətinə görə "Şirəliyevin kadrları" tibb sistemində ayrıca anlayışa çevrilmişdi.

"2021-ci ildə vəzifədən azad edilsə də, Səhiyyə Nazirliyini onun kadrları idarə edirdi. İndiki nazir Teymur Musayev başda olmaqla nazirliyin əsas söz adamları Şirəliyevi özlərinin ağsaqqalları hesab edirdi... Onun kadrları - idarə, xəstəxana rəhbərləri, institut direktorları, rektorlar illərlə yerində qaldı və ya daha yuxarı vəzifələrə təyinatlar aldılar" yazan sayt əlavə edib ki, o, Travmatologiya İnstitutunun direktoru olan İlqar Musayevi özü nazir vəzifəsindən gedən ərəfədə müavini postuna gətirdi: "Nazirlikdəki "bütün prosesləri mükəmməl bilən" Səidə Rüstəmova son vaxtlara qədər iş başında oldu, yalnız saxta sertifikat qalmaqalı böyüdükdən və Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi işə qarışdıqdan sonra ötən ilin dekabrında İnsan resursları, elm və təhsil şöbəsinin müdiri vəzifəsindən uzaqlaşdırıldı. Sıravi həkimlikdən nazir müavinliyinə qədər uzun yol keçən Nigar Əliyeva və onun tələbə yoldaşları - Tibb Universitetinin rektoru Gəray Gəraybəyli və Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru Nazim Qasımov son günlərə qədər toxunulmaz qaldılar. Yalnız bir ay öncə Nazim Qasımov sertifikasiya olaylarından dolayı cəzalandırılmış kmi göstərilərək işdən kənarlaşdırıldı. Amma onun yerinə də Şirəliyevin komandasından hesab edilən Gəray Gəraybəylinin müavini, yeni Tibb Universitetinin prorektoru Nazim Pənahov təyin edildi. Bütün dərmanlara və özəl klinikalara lisenziya verən idarənin rəisi - Analitik Ekspertiza Mərkəzinin rəhbəri Murad Süleymanovun adı müxtəlif işlərdə hallansa da, postunu bu günə qədər qoruyub saxlayıb. Murad Süleymanovun anası Oqtay Şirəliyevin tələbə yoldaşı olub. Adı saxta sertifikasiya qalmaqalında hallanan nazir müavini İlqar Qasımov da Şirəliyevin çətiri altında hesab olunub. Onlarla həkimin sertifikatı ləğv olunsa da, bütün günahlar yalnız bir şöbəyə "yükləndi" və İ.Qasımov məsuliyyətdən yayınmağı bacardı. Kardiologiya İnstitunun direktoru, qalmaqallı Gülnaz Dadaşova da bu komandanın üzvü olduğuna görə toxunulmaz hesab edilib. Hətta bir müddət onun adı potensial səhiyyə naziri kimi hallanıb. Bundan əlavə, illərlə Səhiyyə Nazirliyinin dərman və tibbi avadanlıqların alınması ilə bağlı tenderlərində eyni şirkətlər qalib elan edilib. Nazir dəyişsə də, onların "qələbəsi" daim təmin edilib. Bu səbəbdən son üç ildə Musayevin Səhiyyə Nazirliyində demək olar ki, heç bir kadr dəyişikliyi aparmaması, hətta Şirəliyevin dövründən qalan mətbuat katibini belə dəyişməməsi təsadüfi sayılmır".

Qeyd edək ki, "Unikal" olaraq hələ aylar öncə hazırkı səhiyyə nazirinin bu vəzifəyə gələn ilk gündən öz sələfinin kölgəsində qaldığını, mühüm qərarlarını və addımlarını onunla məsləhətləşdiyini vurğulamışdıq. Oqtay müəllimin vəfatından sonra Teymur Musayevin öz işlərini necə quracağı maraq doğurur. O, mərhum nazirin gətirdiyi kadrlarla yola davam edəcək, yoxsa Səhiyyə Nazirliyində "təmizləməyə" start verərək onları tədricən öz kadrları ilə əvəzləyəcək? Bəziləri sonuncu variantı daha ağlabatan və real sayırlar. Belə ki, axır vaxtlar Musayevə qarşı tənqidlər intensivləşib, onun nazir kimi fəaliyyətinin qənaətbəxş və effektiv olmadığı yönündə rəylər çoxalıb. Hətta Teymur müəllimin tutduğu postdan yola salınacağına dair iddialar da dolaşır.

Belədə Musayevin vəzifəsini qorumaq üçün müəyyən həmlələr etməsi inandırıcı görünür. Söhbət ilk növbədə Səhiyyə Nazirliyində ciddi kadr dəyişikliklərinin aparılmasından gedə bilər. Bir çoxlarının fikrincə, o, mərhum sələfinin quruma gətirdiyi bəzi şəxslərlə yolları ayıraraq nazirliyin fəaliyyətində nəzərəçarpacaq dərəcədə pozitiv dönüş yaratmaqla postunu qoruyub saxlamaq istəyəcəkdir. Son iddialara görə, artıq nazirliyin bəzi mühüm vəzifə sahibləri də bunu təxmin etdikləri üçün ciddi təlaş içindədirlər.

Sözügedən ehtimalın - yəni, Teymur Musayevin rəhbərlik etdiyi nazirlikdə "təmizləmə əməliyyatına" başlayaraq mühüm kadr dəyişiklikləri aparıb-aparmayacağının - reallaşıb-reallaşmadığını isə zaman göstərəcək, odur ki, gözləyək.

*Sənan Mirzə*

# "Bakı Metropoliteni"nin işçilərinin maaşı verilmir? - Rəsmi açıqlama

***Ötən gün "Bakı Metropoliteni" QSC-də əməkhaqqıların gecikdirildiyinə dair məlumatlar yayılıb.***



QSC-dən "Unikal"a bildirilib ki, "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətində əməkhaqqı ödənişləri Cəmiyyətin təsdiq edilmiş büdcəsi çərçivəsində, əməkhaqqı fondunun ayrılmış məbləğinə uyğun olaraq plan üzrə və tam həcmdə həyata keçirilir. Ödənişlərin icrası əmək müqavilələrinin şərtlərinə və Azərbaycan Respublikasının əmək qanunvericiliyinin tələblərinə uyğun şəkildə təmin olunur.

"Bakı Metropoliteni" QSC tərəfindən cari ilin yanvarın 1-dən etibarən müvafiq tədbirlər həyata keçirilmiş, minimum əməkhaqqında edilən dəyişikliklər qanunvericiliyin tələblərinə uyğun olaraq əməkdaşların əməkhaqqına tətbiq edilmişdir. Hazırda Bakı Metropolitenində əmək haqqı qanunvericiliyin tələblərinə tam uyğundur və qurumun ödənilməmiş əmək haqqı öhdəliyi yoxdur.

Əməkhaqqı artımları Cəmiyyətin təsdiq edilmiş büdcəsi, gəlir və xərclər nəzərə alınmaqla, korporativ idarəetmə prinsipləri çərçivəsində qəbul edilən qərarlar əsasında həyata keçirilə bilər. Hazırda Cəmiyyətin belə artımlarla bağlı hər hansı öhdəliyi mövcud deyildir. Əməkhaqqı məbləğlərinə dair hər hansı dəyişiklik və ya yenilənmə baş verdiyi halda, bu barədə əməkdaşlar və aidiyyəti qurumlar rəsmi qaydada məlumatlandırılacaqdır.

# Elçin Alıoğluna qarşı sui-qəsd hazırlanıb



***Bakı Ağır Cinayətlər Məhkəməsində "Trend" Beynəlxalq İnformasiya Agentliyinin direktor müavini, "Baku Network" analitik platformasının rəhbəri, Azərbaycanın aparıcı siyasi şərhçilərindən və beynəlxalq təhlükəsizlik sahəsində ekspertlərindən biri olan Elçin Alıoğluna qarşı sui-qəsd cəhdi ilə bağlı cinayət işi üzrə məhkəmə prosesi başlayıb.***

"Unikal" xəbər verir ki, məhkəməyə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 28-ci (cinayətə cəhd) və 277-ci (dövlət xadimi və ya ictimai xadimin həyatına sui-qəsd) maddələri üzrə ittiham olunan Sarıcanov Abülfəzl Azər oğluna qarşı cinayət işi təqdim edilib. İstintaqın məlumatına görə, təqsirləndirilən şəxs Elçin Alıoğluna qarşı hücumu məqsədyönlü şəkildə hazırlayaraq, cinayətin vaxtını və detalları diqqətlə planlaşdırıb.

Bu gün hakim Səbinə Adil qızı Məmmədzadənin sədrliyi, hakimlər Eldar Hüseyn oğlu İsmayılov və Sabir Sübhi oğlu Hüseynovun iştirakı ilə keçirilən hazırlıq iclasında tərəflərin mövqeləri dəqiqləşdirilib və işin gələcək baxış qaydası müəyyən edilib.

# Bu qablarda saxlanılan qidalar insan sağlamlığına təsir göstərir - RƏSMİ

***Metal əsaslı qablar və məmulatlarda saxlanılan qidalar birbaşa insan sağlamlığına təsir göstərir.***

"Unikal" xəbər verir ki, bu barədə AQTA məlumat yayıb.

Bildirilib ki, bu səbəbdən məhsullar müvafiq təhlükəsizlik standartlarına tam uyğun olmalıdır.

" Yeni qaydalara görə (20 avqust 2025-dən etibarən):

- Qida ilə təmasda olan metal materiallar sağlamlığa zərər verməməlidir.
- Paslanmayan polad istisna olmaqla bütün metallar qoruyucu örtüklə təmin edilməlidir.
- Alüminium, çuqun, sink və digər materiallar üçün xüsusi tələblər müəyyən olunub.
- Etiketlərdə istifadə qaydaları aydın və oxunaqlı göstərilməlidir.

Bu tələblər sadəcə keyfiyyət göstəricisi deyil, qanuni məsuliyyətdir. Qaydaları yerinə yetirin, məhsulunuzu təhlükəsiz edin, istehlakçı etibarını qoruyun!",- deyə Agentlikdən qeyd edilib.

38_27 IYUI-QARA.qxd 10/9/2025 9:56 PM Page 11






## "Azərikart"ın lisenziyası məhdudlaşdırıldı

***Azərbaycan Mərkəzi Bankı (AMB) "Azərikard" MMC prosessinq mərkəzinin öz müraciəti əsasında onun lisenziyasını məhdudlaşdırıb.***

"Unikal" xəbər verir ki, 12 sentyabr 2024-cü ildə şirkətə "ödəniş sisteminin operatoru" fəaliyyətinin göstərilməsi üçün ÖSO-001 nömrəli, "ödəniş əməliyyatının ekvarinqi" və "elektron pulun emissiyası və elektron pul ilə ödəniş əməliyyatlarının icrası" fəaliyyətinin göstərilməsi üçün isə EPT-011 nömrəli lisenziyalar verilib.

Təşkilatın müraciətinə əsasən AMB-nin 8 oktyabr 2025-ci il tarixli qərarı ilə onun lisenziyasında "elektron pul emissiyası və elektron pulla ödəniş əməliyyatlarının icrası" üzrə ödəniş xidməti ləğv edilib. Bununla da Təşkilat fəaliyyətini elektron pul təşkilatı kimi deyil, ödəniş təşkilatı və ödəniş sisteminin operatoru olaraq davam etdirəcək.

## Bəzi keytrinq şirkətləri tələblərə əməl etmir - Xəbərdarlıq



***İstehlakçıların təhlükəsiz və keyfiyyətli qida məhsulları ilə təmin edilməsi, həmçinin qida məhsullarının emalı və çatdırılması xidmətlərinin qida təhlükəsizliyi tələblərinə uyğun təşkili Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin əsas fəaliyyət istiqamətlərindən biridir.***

"Unikal" xəbər verir ki, Agentlik tərəfindən aparılan monitorinqlər zamanı bir sıra keytrinq şirkətlərinin qaydalara əməl etmədiyi və ciddi nöqsanlara yol verdiyi aşkar edilib. Belə ki, 2025-ci ilin yanvar-sentyabr ayları ərzində ölkə ərazisində fəaliyyət göstərən 14 keytrinq xidməti müəssisəsində yoxlama keçirilib. Yoxlamalar zamanı çoxsaylı uyğunsuzluq faktları müəyyən edilib.

Aşkar edilmiş əsas uyğunsuzluqlar aşağıdakılardır:

- müəssisənin qeydiyyata alınmadan fəaliyyət göstərməsi;
- mətbəxdə sanitar-texniki və sanitar-gigiyenik vəziyyətin qənaətbəxş olmaması;
- texnoloji ardıcıllıq prinsipinə əməl olunmaması;
- xammal və hazır məhsulların üzərində etiket məlumatlarının olmaması;
- xammalların müşayiətedici sənədlərinin olmaması;
- yararlılıq müddəti bitmiş məhsulların mövcud olması;
- məhsulların saxlanma qaydalarına əməl olunmaması;
- dezinfeksiya, dezinseksiya və deratizasiya işlərinin aparılmaması;
- işçi heyətin ilkin və dövrü tibbi müayinədən keçməməsi.

Faktlarla bağlı qanunvericiliyə uyğun müvafiq tədbirlər görülüb. Nöqsan aşkarlanan 12 müəssisənin vəzifəli şəxsi inzibati məsuliyyətə cəlb olunub.

Agentlik bir daha xəbərdarlıq edir ki, qida təhlükəsizliyi ilə bağlı tələblərə ciddi riayət olunmalıdır. Qaydalara əməl olunmadığı təqdirdə kütləvi zəhərlənmə, insan həyat və sağlamlığı üçün risklər yarana bilər. Xüsusilə kütləvi tədbirlər zamanı, eləcə də təlim-tədris müəssisələrini qida məhsulları ilə təchiz edən keytrinq şirkətlərində qeydə alınan nöqsanların aradan qaldırılması istiqamətində icrası məcburi göstərişlər verilir. Nəzarət tədbirləri davam etdirilir.

# Beş-on manatlıq şirkətlərin milyonluq borcları

## Bu da azmış kimi milyonlarla manatlıq tenderləri uda da bilirlər - Bir nonsensin pərdəarxası!

***Son vaxtlar Azərbaycanda nizamnamə kapitalı beş-on, ən yaxşı halda 100 manat olan şirkətlərin külli miqdarda vergi borcunun yarandığı müşayiət edilir. Əksərən cüzi kapitalla qurulan şirkətlərin bu qədər yüksək vergi borclarının necə yarandığı isə şübhəsiz ki, maraq doğurmaya bilmir.***

Bir neçə nümunəyə baxaq. Bu günlərdə "Zəngəzur 002" Məhdud Məsuliyyətli Cəmiyyətinin külli miqdarda vergi borcu ortaya çıxıb, məlum olub ki, sözügedən şirkətin Dövlət Vergi Xidmətinin 12 saylı Ərazi Vergilər Baş İdarəsinə 827095.88 manat vergi borcu var. Şirkətin nizamnamə kapitalı isə 20 manatdır.

Yenə bu yaxınlarda nizamnamə kapitalı 10 manat olan "Şamaxı TTT"nin borcunun yarım milyona yaxınlaşdığı aydınlaşıb. Belə ki, adı çəkilən şirkətin İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsinə 439146.04 manat vergi borcu var.



Nizamnamə kapitalı 10 manat olan "Baxeran Group" şirkətinin isə nə az, nə çox, düz 1,2 milyon manat borcu var. Şirkət 2023-cü ildə qeydiyyata alınıb və göründüyü kimi cəmi 2 ildə külli miqdarda borclanıb.

Başqa bir 10 manatlıq şirkətin isə 1 milyon manata yaxın borcu var. Söhbət "Meteor-555" MMC-dən gedir. Bu şirkətin vergi borcu 1 ay öncəyədək 996 651,97 manat təşkil edirdi.

Hətta 5 manatlıq şirkətin belə, Azərbaycanda yüz minlərlə və ya milyonlarla manatlıq vergi borcu ola bilər. Məsələn, "Kempir-12" və "Naviqator Mobil Servises" kimi! Nizamnamə kapitalı 5 manat olan "Kempir-12" şirkətinin külli miqdarda vergi borcu yaranıb. Həmin borcun məbləği üç həftə öncəyədək 292 770,96 manat təşkil edirdi. Nizamnamə kapitalı 5 manat olan digər şirkətin -"Naviqator Mobil Servises"in vergi borcu isə hətta bundan da dəfələrlə çoxdur. Belə ki, həmin şirkətin vergi borcu bir milyon manata yaxınlaşıb - onun İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinə 973691.96 AZN borcu yaranıb.

Bu siyahını kifayət qədər uzatmaq olar. Lakin ümumi mənzərəni görmək üçün yuxarıdakı nümunələr fikrimizcə yetərlidir. Bəs nizamnamə kapitalı xeyli az olan şirkətlərin yüz minlərlə, milyonlarla vergi borcunun yaranması absurd deyilmi? Belə bir nonsensi nə ilə izah etmək olar?

Maraqlı məqam orasındadır ki, Azərbaycanda çox aşağı nizamnamə kapitalına malik şirkətlərin külli miqdarda vergi borcu olması ilə yanaşı, böyük məbləğli tenderlər qazanması da adi hal alıb. Nəticədə onların fəaliyyəti ictimaiyyət arasında şəffaflıq və qanunçuluqla bağlı suallar, eyni zamanda dövlət satınalma müsabiqələrinin ədalətli keçirilməsinə dair şübhələr doğurur.

Digər tərəfdən, sözügedən şirkətlərin əksər hallarda hansısa məmurla birbaşa və ya dolayı ilə bağlı olduğu yönündə qənaət hakimdir. Elə həmin məmur dəstəyi ilə də 5-10 manatlıq şirkətlərin yüz minlərlə, milyonlarla manatlıq tenderlərin qalibi seçildiyi, iri vergi borclarının bir qisminin isə məhz bu tenderlərin icrası prosesində yarandığı ehtimal olunur.

Bəzi iqtisadçı ekspertlər deyirlər ki, cüzi nizamnamə kapitalı ilə yaradılan, lakin böyük məbləğli tenderlərin qalibi elan edilən şirkətlər əsasən birdəfəlik, ən yaxşı halda qısa ömürlü şirkətlərdir və onlar məhz tenderlərdə iştirak etmək üçün yaradılırlar. Hər hansı tenderdə qalib gəlirlər, əldə etdikləri vəsaitlər isə onların sahibləri arasında bölüşdürülür, sonra da ləğv olunurlar. Bununla da həm vergilərdən yayınmağa cəhd edir, həm də özlərini gələcək yoxlamalardan sığortalayırlar. Şirkətlərin bir çoxunun əksər hallarda tender keçirən qurumların rəhbərlərinə bu və ya digər formada aid olduğuna da diqqət çəkən ekspertlər dövlət satınalmaları sayəsində şəffaflığın hələ də ürəkaçan səviyyədə olmadığını, nəticə etibarilə bunun kimlərəsə manipulyasiya imkanı verdiyi düşüncəsindədirlər.

"Bir çox hallarda tenderi udan şirkətlərin elə həmin dövlət qurumu tərəfindən yaradıldığı üzə çıxır. Heç kimin tanımadığı və başqa qurumların keçirdiyi tenderlərdə "gözə dəyməyən", bəzən nizamnamə kapitalı 10-20 manat olan şirkətlərin rəhbərləri isə adətən özlərinin yaxın qohumları olur. Bu oyunun qurulmasının arxasında dayanan əsas məsələ isə sifariş veriləcək şirkətdən məbləğin bir hissəsinin geri alınmasıdır. Tərəflər bunu "otkat" adlandırırlar. Pulun geri qaytarılması müxtəlif üsullarla həyata keçirilir. "Otkat"-ın əvəzinə isə sifarişçiyə qiymətləri sərbəst müəyyənləşdirmək hüququ verilir, o, məsələn 1 manatlıq işin dəyərini 10 manata qaldıra da, keyfiyyətsiz məhsulu yuxarı qiymətlərlə "sırıya" da bilər. Nəticədə görülən işin keyfiyyətsiz olması isə tərəfləri düşündürmür. Hər halda vaxtı çatanda "altından çıxmaq" üçün variantlar tapılacaq" - hələ bir neçə il öncə Bizim.Media-nın araşdırmasında deyilirdi. Fikrimizcə, əlavə sözə ehtiyac qalmır.

Hər bir halda, soruşmaq vaxtı çoxdan çatıb: beş-on manatlıq nizamnamə kapitalı olan bir şirkətə hansı imkanlarına, meyarlarına, göstəricilərinə əsasən yüzminlərlə, milyonlarla manatlıq dövlət sifarişləri verilir? Yəqin ki, bu suala obyektiv, inandırıcı cavab tapılsa, eyni şirkətlərin yüzminlərlə, milyonlarla manatlıq vergi borcunun necə yarandığını da hamılıqla öyrənə biləcəyik.

**Sənan Mirzə**

## 5.3.12. azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycanda sahibkarlara "yaşıl işıq"

### Vüqar Bayramov: "Yoxlamaların qadağan edildiyi müddət bitdikdən sonra sahibkarın yoxlamaların qadağan edildiyi dövr üçün fəaliyyəti yoxlanılmayacaq"



***Azərbaycanda həyata keçirilən iqtisadi islahatların uğur qazanmasında dövlətin sahibkarlara göstərdiyi dəstək mexanizmlərinin mühüm payı var. Dövlət başçısının sahibkarlıq sektorunda apardığı məqsədyönlü siyasətin nəticələrindən biri də, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə imzaladığı növbəti qanundur. Prezident tərəfindən təsdiqlənmiş qanunla Azərbaycanda sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılmasının müddəti 2026-cı il yanvarın 1-nə qədər uzadıldı.***

Bu müddətdə sahibkarlıq subyektlərində yalnız vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına təhlükə yaradan hallar üzrə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamalar aparıla bilər. Həmin yoxlamalar da müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla aparılır. Qanunun müddəaları korrupsiya cinayətlərinin araşdırılması ilə əlaqədar Baş Prokurorluğun apardığı yoxlamalara şamil edilmir. Sahibkarların bu qanunun tələbləri pozulmaqla həyata keçirilən yoxlamalardan müvafiq icra hakimiyyəti və prokurorluq orqanlarına, həmçinin inzibati və məhkəmə qaydasında şikayət etmək hüquqları var.

Məqsəd ondan ibarətdir ki, ölkədə sahibkarların fəaliyyətinə qanunsuz, kortəbii şəkildə, ehtiyac olmadan edilən müdaxilələrə yol verilməsin.

Millət vəkili Vüqar Bayramov "Unikal" qəzetinə müsahibəsində bildirib ki, müəyyən edilmiş məhdudiyyətlər nəzərə alınmaqla bu müddətdə yalnız vergi yoxlamaları, maliyyə bazarları sahəsində aparılan yoxlamalar, gömrük auditi, özəl tibb fəaliyyətinin subyektlərində aparılan yoxlamalar, eləcə də dərman vasitələrinin keyfiyyəti, təhlükəsizliyi qaydalarına riayət edilməsi və qida məhsullarının təhlükəsizliyinə nəzarətin həyata keçirilməsi ilə bağlı yoxlamalar, yanğın nəzarəti, tikintiyə dövlət nəzarəti, təhlükə potensiallı obyektlərin və dağ-mədən sahələrinin təhlükəsiz istismarına nəzarət və radiasiya təhlükəsizliyinə nəzarət sahəsində yoxlamalar davam etdirilə bilər.

Onun sözlərinə görə, əlavə olaraq "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanunun tələblərinə əməl edilməsinə nəzarətin həyata keçirilməsi ilə bağlı həmin qanunla müəyyən edilmiş nəzarət orqanları tərəfindən həyata keçirilən yoxlamalar, habelə insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamalara icazə verilir".

Deputat bildirib ki, digər mühüm məqam yoxlamaların dayandırıldığı müddət başa çatdıqdan sonra da həmin dövrdəki fəaliyyətlə bağlı yoxlamaların aparılmasının qadağan edilməsidir: Bu o deməkdir ki, yoxlamaların qadağan edildiyi müddət bitdikdən sonra sahibkarın yoxlamaların qadağan edildiyi dövr üçün fəaliyyəti yoxlanılmayacaq. Təbii ki, bu zaman icazə verilən yoxlamalar üzrə fəaliyyətlər istisna ediləcək".

Vüqar Bayramov bunun sahibkarların fəaliyyətinə kortəbii müdaxilələrə qarşı addım olduğunu, sahibkarlığın inkişafına töhvə verdiyini söyləyib.

Qeyd edək ki, sahibkarlığın inkişafı davamlı iqtisadi yüksəlişin açarı sayılır. Bu səbəbdən sözügedən sahə dövlətlərin iqtisadi siyasətlərində prioritet istiqamətlərdən birini təşkil edir. Yoxlamaların dayandırılması həm də investisiya mühitini cəlbedici edən amillərdən biridir.

Məlumat üçün onu da əlavə edək ki, Azərbaycanda sahibkarlığın inkişaf etdirilməsi, xüsusilə kiçik və orta biznesin dəstəklənməsi istiqamətində fəaliyyət göstərən İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun (SİF) maliyyə mexanizmləri ölkədə biznes mühitinin gücləndirilməsi istiqamətində dövlət siyasətinin həyata keçirilməsi üçün əsas vasitələrdəndir. 2025-ci ilin yanvar-iyun ayları ərzində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 2371 layihəyə ümumilikdə 126,4 milyon manat məbləğində güzəştli kredit ayrılıb. Bu ilin ilk 6 ayında güzəştli kreditlərdən yararlanmış sahibkarlıq subyektlərinin 94,1%-i regionlarda fəaliyyət göstərir. Verilmiş ümumi güzəştli kredit məbləğinin 70%-i həmin sahibkarların payına düşüb. Bu ilin birinci yarısında verilmiş güzəştli kreditlərin layihə sayı üzrə 99,8%-i, kredit məbləği üzrə isə 90,4%-i mikro, kiçik və orta sahibkarlara aiddir.

Güzəştli kreditlərdən yararlanan sahibkarlıq subyektləri arasında qadın və gənc sahibkarlara məxsus layihələr xüsusi yer tutur. Həmin dövr ərzində qadın sahibkarların 226 layihəsi 8,4 milyon manat güzəştli kreditlə təmin edilib. Gənc sahibkarların 63 layihəsinə isə 3,7 milyon manat güzəştli kredit verilib.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Aşkarlanan kütləvi məzarlıqların sayı məlum oldu

***Torpaqlarımızın işğaldan azad edilməsindən sonra həmin ərazilərdə 29 kütləvi məzarlıq aşkar edilmişdir. Məzarlıqlardan tapılmış meyitlərin qalıqlarının ekspertizası qətlə yetirilmiş azərbaycanlıların dəhşətli işgəncələrə məruz qoyulduqlarını sübut edir.***

"Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyevin "İtkin düşmüş şəxslər probleminin həlli üçün səylərin birləşdirilməsi və əməkdaşlığın genişləndirilməsi" mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciətində bildirilib.

"Bu, çox ağır mənzərədir. İnsanların kütləvi şəkildə, işgəncə ilə öldürülməsi, qeyri-insani qaydada basdırılması və cinayətin izlərinin itirilməsi beynəlxalq hüquq normalarının ciddi pozuntusudur", - deyə dövlətimizin başçısı qeyd edib.

## ADSEA 3 178 nəfəri içməli su ilə təmin etdi

***Bərdə rayonunun Güloğlular kəndində su təchizatının yaradılması münasibətilə mərasim təşkil olunub.***



Bu barədə "Unikal"a Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyindən (ADSEA) məlumat verilib.

Bildirilib ki, mərasimdə Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədrinin müavini İlham Bayramov, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan Regional Su Meliorasiya Xidmətinin İdarə Heyətinin sədri Zakir Quliyev, Agentliyin və Bərdə Rayon İcra Hakimiyyətinin nümayəndələri, şəhid ailələri və kənd sakinləri iştirak ediblər.

Çıxışlar zamanı bildirilib ki, Güloğlular kənd sakinləri bu gün keyfiyyətli və dayanıqlı içməli su ilə təmin olunurlar. Qeyd olunub ki, kənddə su təchizatının yaradılması layihəsi Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi (ADSEA) tərəfindən həyata keçirilib. Bunun üçün əhalinin keyfiyyətli içməli suya əlçatanlığının təmin edilməsi məqsədi ilə mövcud subartezian quyusu bərpa edilib.

Bərpa edilən subartezian quyusunun suyunun cod olması səbəbindən suyun keyfiyyətinin yaxşılaşdırılması nəzərə alınaraq gün ərzində məhsuldarlığı 50 kub metr olan membran texnologiya əsaslı tərs-osmos tipli modul sutəmizləyici qurğular kompleksi quraşdırılıb. Modul tipli sutəmizləyici qurğudan emal edilən keyfiyyətli suyun əhalinin istifadəsinə çatdırılması üçün 1.5 km uzunluğunda su xətti çəkilib. Əhaliyə verilən içməli suyun təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə suyun zərərsizləşdirilməsi də qurğuda nəzərdə tutulub.

Kənd sakinləri göstərilən qayğıya görə Prezident İlham Əliyevə təşəkkürlərini bildiriblər.

Qeyd edək ki, Güloğlular kəndində 712 fərdi yaşayış evi olmaqla 3178 nəfər içməli su ilə təmin olunub.

# Keçmiş məcburi köçkünlər mina təhlükəsi ilə bağlı maarifləndirilib



***Məcburi köçkünlərlə iş sahəsində dövlət siyasətinin ən mühüm istiqamətlərindən biri onların sosial müdafiəsinin səmərəli təşkilidir. Həmçinin, Prezident İlham Əliyevin tapşırığına əsasən, doğma yurda geri dönən keçmiş məcburi köçkünlərin rahatlığının və təhlükəsizliyinin təmin edilməsi prioritet məsələlərdəndir.***

"Unikal" xəbər verir ki, "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanununda keçmiş məcburi köçkünlər üçün bir sıra sosial müdafiə tədbirləri nəzərdə tutulur. Bunlardan biri də sosial müdafiəyə ehtiyacı olan məcburi köçkünlərin yararlandığı, dövlət büdcəsinin vəsaiti hesabına ödənilən vahid aylıq müavinətdir.

Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən doğma yurduna qayıtmağa hazırlaşan və işğaldan azad edilmiş ərazilərə yeni salınmış yaşayış məntəqələrində məskunlaşan əhali arasında aparılan məlumatlandırma, təbliğat-izahat və maarifləndirmə işləri çərçivəsində onlara sosial müdafiə tədbirləri, o cümlədən vahid aylıq müavinətin qanunvericilikdə nəzərdə tutulan başaçatma müddətləri, müddətin axımı, habelə bunun qanuniliyi və zəruriliyi məsələləri də ətraflı izah edilir.

Dövlət Komitəsinin Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, maarifləndirmə və təbliğat işləri çərçivəsində mina təhlükəsi ilə bağlı hazırladığı videoçarx insanları ayıq-sayıq olmağa, xəbərdarlıq nişanlarının tələblərinə əməl etməyə çağırır. İşğaldan azad edilmiş ərazilərdə mina və partlayıcı hərbi sursatlarla bağlı təhlükənin aradan qaldırılması üçün ərazilərdə müvafiq təmizləmə işləri aparılmaqla yanaşı, əhalinin maarifləndirilməsi də həyata keçirilir. Bununla əlaqədar olaraq, növbəti tədbir Ağdərə rayonunun Vəngli, Xocalı rayonunun Ballıca və Xanyurdu kəndlərinə köçürülən ailələr arasında keçirilib. Dövlət Komitəsində keçirilən tədbirdə məcburi köçkünlərin sosial müdafiəsi məsələləri və vahid aylıq müavinətin daimi yaşayış yerinə geri qayıtmış şəxslərin üç il müddəti başa çatdıqdan sonra dayandırılacağı və mina təhlükəsi haqqında hazırlanmış videoçarxlar məcburi köçkünlər üçün nümayiş etdirilib.

Qeyd edilən video çarxlar, mediada mütəmadi olaraq yayımlanır. Xatırladaq ki, Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində Dövlət Komitəsi tədbirlər planına uyğun olaraq aidiyyəti şöbə, yerli nümayəndəliklər və Mənzil-Kommunal İstismar Sahələri tərəfindən məcburi köçkünlərlə qanunvericiliyin tələbləri barədə maarifləndirici görüşlər keçirilir, sosial müdafiə tədbirlərinə dair məlumat kitabçaları və broşürlər hazırlanaraq məcburi köçkünlərə təqdim olunur, videoçarxlar çəkilir.

# Poçt markalarına həsr olunmuş film təqdim olunub

***AZCON Holding şirkətlərindən olan "Azərpoçt" MMC poçt markasının tarixinə və inkişafına həsr olunmuş "Səssiz ünsiyyət" adlı bədii-sənədli filmin təqdimatını keçirib.***

"Unikal" xəbər verir ki, tədbirdə rəsmi heyət, ictimaiyyətin tanınmış nümayəndələri, filmin yaradıcı komandası və media nümayəndələri iştirak ediblər.

Film Azərbaycanın poçt markasının yaranma tarixindən bu günə qədər keçdiyi inkişaf mərhələlərini özündə əks etdirir. Ekran əsərində ünsiyyətin ilkin formaları, qədim Misir və Roma dövrlərində çaparlar vasitəsilə xəbərlərin ötürülməsi, eləcə də markanın "səssiz ünsiyyət vasitəsi" kimi xalqların və dövlətlərin rəsmi simvolu kimi qəbul olunmasından danışılır; həmçinin filmdə keçmişdən bugünə qədər buraxılmış ən müxtəlif marka buraxılışları əyani şəkildə təqdim olunur.

Tədbirin açılış nitqini söyləyən "Azərpoçt" MMC-nin İdarə heyətinin sədri vəzifəsini icra edən İsi Mustafayev bu filmin "Azərpoçt" üçün hazırlanmış ilk geniş və əhatəli ekran əsəri olduğunu qeyd edib.

Tədbir zamanı AZCON Holding-in Kommunikasiya departamentinin direktoru Əli Əliyev çıxışında layihənin poçt markalarının tarixi irsinin qorunması və milli dəyərlərin təbliğində əhəmiyyətini vurğulayıb. "Azərpoçt" MMC-nin rəhbərliyi, Azərbaycan Filatelistlər İttifaqının üzvləri, eləcə də digər mütəxəssislər çıxışlarında markaların buraxılış qaydaları və rəsmi statusu barədə məlumat veriblər.

Maarifləndirici xarakter daşıyan film tamaşaçılarda markalar haqqında geniş və dolğun təsəvvür yaradır, bu sahəyə fərqli baxışı formalaşdırır. Bədii hissə vasitəsilə ekran əsəri tamaşaçını keçmişdən bu günə - Azərbaycan markasının formalaşması və müasir dövrdə qazandığı nailiyyətlərə doğru səyahətə aparır.

"Səssiz ünsiyyət" filmi həm mədəni, həm də tarixi baxımdan Azərbaycan poçt tarixinin zəngin irsini və markanın səssiz, lakin dərin mənalı ünsiyyət gücünü nümayiş etdirən əhəmiyyətli layihə kimi dəyərləndirilir.

# Konstitusiya və suverenlik dövlətçiliyimizin əsas amilidir

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilib. 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq 2025-ci ilin Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilməsi ölkənin hüquqi əsaslarının, milli dövlətçiliyin və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsində mühüm mərhələ oldu. Bu il Konstitusiyanın dövlət idarəçiliyindəki rolunun daha dərindən təhlil olunması və ictimai şüurda onun yerinin möhkəmləndirilməsi baxımından böyük məna daşıyır.***

Müasir Azərbaycan dövlətinin Konstitusiyası Ümummilli Lider Heydər Əliyevin şah əsərlərindən biridir. Əlbəttə ki, müstəqillik əldə edəndən sonra Azərbaycan özünün Konstitusiyasını qəbul etməli idi, bu baxımdan Ulu Öndər xalqın təkidi ilə hakimiyyətə gəldikdən və xalqımızın yüksək etimadı ilə Prezident seçildikdən sonra ilk diqqət etdiyi sahələrdən biri yeni Konstitusiyanın hazırlanması və qəbul edilməsi idi.

Beləliklə, 30 il öncə - 1995-ci il noyabrın 12-də Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək preambulasında təsbit olunmuş - Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək kimi ülvi niyyətlərlə ümumxalq səsverməsi - referendum yolu, 94,5 faiz səs çoxluğu ilə ilk milli Konstitusiyasını qəbul etmişdir. Bu sənəd dövlətin hüquqi əsaslarını müəyyən edərək dövlət idarəçiliyinin prinsiplərini, vətəndaş hüquq və azadlıqlarını və qanunun aliliyini təsbit etdi. Cəmiyyət inkişaf etdikcə meydana çıxan yeni ictimai münasibətlərin hüquqi tənzimi məqsədilə, bir qayda olaraq, qanunlar qəbul edilir. Bəzən bu, Konstitusiyaya əlavələrin və dəyişikliklərin edilməsinə də səbəb olur. Bu zərurət daim inkişafda olan ictimai həyatın obyektiv tələblərindən doğur. Qəbulundan sonra qanunvericilik sistemini beynəlxalq standartlara uyğunlaşdırmaq üçün 2002-ci il, 2009-cu il və 2016-cı ildə keçirilmiş referendumlar vasitəsilə Konstitusiya daha da təkmilləşdirilərək ona əlavə və dəyişikliklər edilmiş, bu yeni müddəalar da, öz növbəsində, insan hüquq və azadlıqlarının müdafiəsinin gücləndirilməsinə, dövlət idarəetmə sisteminin təkmilləşdirilməsinə və müasirləşdirilməsinə, hüquqi islahatların daha effektiv həyata keçirilməsinə xidmət etmişdir.

Konstitusiya hər bir müasir dövlətin hüquqi strukturunda normativ nüvəni təşkil edir. Azərbaycanın dövlət quruculuğu prosesində Konstitusiya yalnız hüquqi sənəd deyil, həm də siyasi legitimliyin, hüquqi sabitliyin və milli suverenliyin əsas sütunu kimi çıxış edir. "Konstitusiya və Suverenlik İli" çərçivəsində bu sənədin hüquqi, siyasi və sosial aspektlərinin yenidən dəyərləndirilməsi, konstitusional düşüncənin dərinləşdirilməsi baxımından mühüm imkanlar yaradır. Bu baxımdan, Konstitusiyanın elmi tədqiqi və tətbiqinin təkmilləşdirilməsi hüquqi dövlətin davamlı inkişafına xidmət edən əsas şərtlərdən biri kimi çıxış edir.

2020-ci il sentyabrın 27-də Ermənistanın törətdiyi təxribatlara və növbəti hərbi təcavüzünə cavab olaraq torpaqlarımızın işğaldan azad olunması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi müvafiq qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılması və ədalətin bərpa edilməsi niyyətiylə başlayan 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun rəşadəti və Prezident İlham Əliyevin qətiyyəti sayəsində qazanılan tarixi qələbə, eləcə də Azərbaycan Respublikasının Konstitusiya quruluşunu bərpa etmək məqsədilə 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən, cəmi 23 saat 43 dəqiqə davam edən uğurlu lokal xarakterli antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü, suverenliyi, beynəlxalq səviyyədə tanınan sərhədləri, Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsi tam bərpa edilmişdir. Prezident cənab İlham Əliyev Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq 2024-cü il sentyabrın 19-da imzaladığı "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" Sərəncamla hər il sentyabrın 20-nin Azərbaycan Respublikasında "Dövlət Suverenliyi Günü" kimi qeyd edilməsini qərara almışdır. Bu addım Azərbaycanın müasir tarixində daha bir şərəfli günün qeyd olunmasına səbəb olmuşdur.




"Konstitusiya və Suverenlik İli" çərçivəsində bu il ərzində orta və ali məktəblərdə Konstitusiya dərsləri keçilmiş, hüquqşünaslar və tələbələr üçün elmi konfranslar təşkil olunmuş, yeni hüquqi islahatlar və qanunvericilik təşəbbüsləri müzakirəyə çıxarılmış, eyni zamanda Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş tədbirlər təşkil edilmiş, dövlətçilik və suverenlik mövzusunda sənədli filmlər çəkilmişdir. Bu tədbirlər hüquqi maarifləndirməni artıracaq, dövlət idarəetməsini təkmilləşdirəcək, gənc nəsillərin vətənpərvərlik ruhunu gücləndirəcək, onlarda vətəndaş şüurunu artıracaq, Azərbaycanın beynəlxalq mövqeyini daha da möhkəmləndirəcəkdir.

Konstitusiya və suverenlik Azərbaycan dövlətinin dayaqlarıdır və bu dəyərlərin qorunması ölkənin gələcək inkişafı üçün mühüm rol oynayır. Hər bir vətəndaş konstitusiyanı öyrənməli, onun prinsiplərinə hörmət etməli və dövlətin suverenliyini qorumaq üçün çalışmalıdır. "Konstitusiya və Suverenlik ili" bu dəyərlərin daha da möhkəmlənməsinə və gələcək nəsillərə ötürülməsinə mühüm töhfə verəcəkdir.

***Ağdaş Rayon Statistika İdarəsinin rəisi***
***Elşən Abdullayev***

38_27 IYUI-QARA.qxd 10/9/2025 9:58 PM Page 14



# Konstitusiya və Suverenlik ili...

***Azərbaycan Respublikasında 2025-ci il "Konstitusiya və Suverenlik ili" elan olunmuşdur. Bu qərar ölkəmizin müasir inkişaf mərhələsində dövlət quruculuğu prosesinə yeni təkan vermək, hüquqi dövlətin əsaslarını möhkəmləndirmək və milli suverenlik ideyasını daha da gücləndirmək mühüm tarixi əhəmiyyət kəsb edir. Konstitusiya hər bir dövlətin siyasi və hüquqi həyatında başlıca sənəddir. O, yalnız qanunların ümumi çərçivəsini müəyyən etmir, eyni zamanda xalqın iradəsini, milli dəyərləri və dövlətçilik ənənələrini özündə əks etdirir. Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi - referendum yolu ilə qəbul olunmuşdur. Bu sənəd ölkəmizin müstəqilliyini hüquqi cəhətdən təsdiq etmiş, dövlətin ali qanunu kimi bütün digər qanunvericilik aktlarının əsasını təşkil etmişdir. Konstitusiyanın qəbulundan ötən müddət ərzində Azərbaycanda hüquqi dövlət quruculuğu istiqamətində mühüm nailiyyətlər əldə olunmuş, insan hüquq və azadlıqlarının təminatı daha da güclənmişdir.***

"Konstitusiya və Suverenlik ili"nin elan olunması həm də Azərbaycan dövlətinin müstəqilliyinin əhəmiyyətinə diqqəti artırmaq məqsədi daşıyır. Suverenlik dövlətin daxili və xarici siyasətdə tam müstəqilliyini, heç bir xarici gücdən asılı olmadan qərar qəbul etmək imkanını ifadə edir. Azərbaycan Respublikasının müstəqilliyi 1991-ci ildə bərpa olunmuş və bu illər ərzində ölkəmiz çoxsaylı sınaqlardan keçərək öz suverenliyini möhkəmləndirmişdir. Müasir dövrdə isə Azərbaycan beynəlxalq aləmdə müstəqil siyasət yürüdən, regional və qlobal miqyasda söz sahibinə çevrilən güclü dövlət kimi tanınır.




Bu ilin çərçivəsində həyata keçirilən tədbirlər bir neçə istiqaməti əhatə edir. İlk növbədə, təhsil müəssisələrində - məktəblərdə, universitetlərdə Konstitusiyanın mahiyyəti, onun cəmiyyət həyatındakı rolo barədə maarifləndirmə işləri genişləndirilir. Gənc nəsil dövlətin hüquqi əsaslarını dərindən öyrənməklə, vətəndaş məsuliyyətini dərk etməklə dövlətçiliyimizin gələcək inkişafında mühüm rol oynayacaqdır. Bundan əlavə, müxtəlif konfranslar, elmi-praktik seminarlar, sərgilər və ictimai diskussiyalar təşkil olunmaqla, geniş ictimaiyyətin bu məsələlərə marağı artırılır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dəfələrlə qeyd etmişdir ki, dövlətimizin ən böyük nailiyyəti müstəqilliyin əbədi olmasıdır. Məhz bu müstəqillik və suverenlik sayəsində ölkəmiz iqtisadi, siyasi, mədəni və sosial sahələrdə böyük uğurlar qazanmışdır. Xüsusilə son illərdə ölkəmizin beynəlxalq aləmdə artan nüfuzu, qlobal enerji və nəqliyyat layihələrində mühüm iştirakçısı kimi mövqeyi suveren siyasətin bariz göstəricisidir.

Bundan başqa, 2020-ci ildə qazanılmış tarixi Zəfər Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpasını təmin etmişdir. Bu, Konstitusiyada təsbit olunmuş prinsiplərin reallığa çevrilməsinin aydın nümunəsidir. Artıq yeni dövrdə dövlətin qarşısında duran əsas vəzifələrdən biri də azad edilmiş torpaqlarda həyatın bərpası, bu ərazilərdə konstitusion hüquqların tam təmin olunmasıdır. Bu baxımdan "Konstitusiya və Suverenlik ili" həm də Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq işləri ilə bilavasitə bağlıdır.

Əlavə olaraq, bu il ərzində hüquq-mühafizə orqanlarının, məhkəmə sisteminin və digər dövlət qurumlarının fəaliyyətində şəffaflıq, ədalətlilik və insan hüquqlarının qorunması prinsiplərinə xüsusi diqqət yetirilir. Çünki hüquqi dövlətin möhkəmləndirilməsi yalnız qanunların mövcudluğu ilə deyil, onların real tətbiqi ilə mümkündür. Bu baxımdan, "Konstitusiya və Suverenlik ili" həm də islahatların dərinləşdirilməsinə təkan verəcəkdir. Nəticə olaraq demək olar ki, 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan olunması dövlətçiliyimiz üçün mühüm siyasi və ideoloji hadisədir. Bu, təkcə dövlət qurumlarının fəaliyyəti ilə məhdudlaşmır, eyni zamanda hər bir vətəndaşın dövlətə bağlılığını, milli ruhunu və hüquqi biliklərini daha da gücləndirmək məqsədi daşıyır. Konstitusiyamız müstəqilliyimizin hüquqi təminatı,suverenliyimiz isə varlığımızın əsasıdır. Bu iki dəyərin qorunması və gələcək nəsillərə ötürülməsi isə hər birimizin borcudur.

Beləliklə, "Konstitusiya və Suverenlik ili" həm dövlətin, həm də cəmiyyətin inkişafına xidmət edən tarixi bir mərhələdir. Onun mahiyyəti yalnız bu ilin tədbirləri ilə məhdudlaşmır, uzunmüddətli perspektivdə Azərbaycan Respublikasının daha güclü, daha müstəqil və daha ədalətli dövlət kimi inkişafına mühüm töhfə verəcəkdir.

***Xaçmaz Rayon***
***Statistika İdarəsinin rəis müavini***
***Vüqar İsmayılov***

# 2025-ci ilin yanvar-iyun ayları Yevlax şəhərində sənayenin inkişafı haqqında statistika

***Yevlax rayonunun sənayesi emalı, elektrik enerjisi qaz və buxar istehsalı bölüşdürülməsi və təchizatı, su təchizatı, tullantıların təmizlənməsi və emalı sahələri ilə təşkil olunmuşdur.***

Rayon ərazisində 56 sənaye müəssisə qeydiyyatdan keçmiş, 2025-ci ilin yanvar-iyun aylarında yalnız 17 müəssisə fəaliyyət göstərmişdir.

2025-ci ilin yanvar-iyun aylarında sənaye müəssisələrində malların istehsalı və sənaye xarakterli xidmətlərin həcmi 19713,6 min manat olmuşdur. Sənaye istehsalı indeksi (sabit qiymətlərlə) 36,2 faiz təşkil etmişdir. İstehsal olunmuş və göstərilmiş xidmətlərdən 11726,9 min manatı hüquqi şəxslərin, 4722,6 min manatı fiziki şəxslərin, 3264,1 min manatı isə ev təsərrüfatlarında sənaye fəaliyyəti ilə məşğul olan təsərrüfatların hesabına olmuşdur.

2025-ci ilin yanvar-iyun aylarında sənaye müəssisələrinin gördüyü işin həcminin 7585,4 min manatı və ya 38,5




faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 345,8 min manatı və ya 1,7 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsinin, 11782,4 min manatı və ya 59,8 faizi emal sənayesinin payına düşür.

Əvvəlki ilin yanvar-iyun ayları ilə müqayisədə emal sənayesi üzrə məhsul istehsalı 19,4 faiz, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsi üzrə 75,4 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsi üzrə isə 9,2 faiz az olmuşdur.

Hesabat dövrü ərzində emal sənayesinə mənsub olan qeyri-dövlət sektorunda istehsalın həcmi 11782,4 min manat olmuş və sənayenin ümumi məhsulunda onun xüsusi çəkisi 59,8 faiz təşkil etmişdir.

2025-ci il iyulun 1-i vəziyyətinə sənaye müəssisələrinin anbarlarında mal qalığı 2057,6 min manat, ötən ilin müvafiq dövründə isə 382,5 min manat olmuşdur.

***Hazırladı,***
***Yevlax Şəhər***
***Statistika İdarəsinin***
***aparıcı məsləhətçisi***
***Şamxal Mirzəyev***



# Azərbaycanda kiber təhdidlərə qarşı platforma yaradılıb

***Ölkə səviyyəsində kibertəhlükəsizliklə bağlı informasiya mübadiləsinin həyata keçirilməsi, müasir təhdidlərdən qorunma məqsədilə açıq mənbələr əsasında kiber təhdid və insidentlərin mübadiləsi platforması yaradılıb. Bu platformaya artıq 30-dan çox dövlət qurumu qoşulub.***

"Unikal" xəbər verir ki, bu barədə rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Saməddin Əsədov "Critical Infrastructure Defence Challenge-2025" tədbirində çıxışı zamanı deyib.

Saməddin Əsədov qeyd edib ki, Milli Kompüter İnsidentlərinə Qarşı Mübarizə Mərkəzi (CERT) ilə beynəlxalq CERT-lər arasında vahid məlumatlandırma mexanizmlərinin qurulması, təhdidlərin qiymətləndirilməsi, dövlət qurumları arasında koordinasiya və məsləhətləşmə platformalarının yaradılması istiqamətində işlərə başlanılıb.

"Kibertəhlükəsizlik dayanıqlı rəqəmsal inkişafın təmin edilməsində ən vacib komponentlərdən biridir. Bu sahədə ixtisaslı kadr potensialının artırılması məqsədilə İsrailin "Technion" Universiteti ilə əməkdaşlıq çərçivəsində yarımillik təlim proqramı həyata keçirilir. Proqram çərçivəsində 500 mütəxəssisin hazırlanması, yüzlərlə şəxsin praktiki məşğələlərə və ixtisasartırma təlimlərinə cəlb olunması nəzərdə tutulur. Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin məzunları bu gün keçirilən kibermübarizə yarışında da iştirak edirlər", - deyə nazir müavini vurğulayıb.

Saməddin Əsədov bildirib ki, "hökumət buludu" layihəsinin əsas provayderi "AzInTelecom"dur: "Artıq yüzdən çox dövlət qurumu informasiya sistemlərini "hökumət buludu"na köçürüb. Hazırda əlavə iki yeni DATA mərkəzin yaradılması üzərində də işlər aparılır. "AzInTelecom" tərəfindən tətbiq olunan SİMA rəqəmsal həlli ölkədə rəqəmsal transformasiya üçün mühüm addımlardan biridir. Biometriya, kriptoqrafiya və süni intellekt texnologiyalarını birləşdirən bu mobil tətbiqdən 5 milyondan çox vətəndaş istifadə edir və 200-dən artıq hökumət portalına giriş imkanı yaradır".

# "ADY" 300-ə yaxın blok-qatar qəbul edib

***Bu ilin yanvar-sentyab aylarında "Azərbaycan Dəmir Yolları" QSC (ADY) 296 blok-qatar, o cümlədən 113 tranzit qatar qəbul edib.***

"Unikal" səhmdar cəmiyyətinə istinadən xəbər verir ki, bu göstəricilər ötən ilin eyni dövrü ilə müqayisədə 39 % artım deməkdir.

Hesabat dövründə blok-qatarlarla 103 134 TEU konteyner yük daşınıb ki, bu da 1 il əvvələ nisbətən təxminən 20 % çoxdur.

38_27 IYUI-QARA.qxd 10/9/2025 9:57 PM Page 15



## İsrail saxladığı türk deputatları deportasiya edir

***İsrail əsgərlərinin saxladığı "Azadlıq donanması"na aid gəmilərdəki Türkiyənin üç deputat oktyabrın 9-da vətənə qayıdacaq.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə Xarici İşlər Nazirliyi məlumat yayıb.

Qeyd olunur ki, İsrail əsgərləri tərəfindən saxlanılan 3 türk deputat hava limanında üçüncü ölkəyə deportasiya olunmalarını gözləyir. Deportasiya nöqtəsi bəlli deyil. Deputatların diplomatlarla əlaqə saxlamasına icazə verilmir və onların deportasiya məntəqəsinin yeri məlum deyil.

*Gülayə Mecid*

## Erməni deputatlar Türkiyəyə göndərilir

***Ermənistan parlamentinin "Mülki müqavilə" fraksiyasının deputatları Türkiyəyə gələcək.***

"Unikal" xəbər verir ki, bu barədə parlamentin spikeri Alen Simonyan fərman imzalayıb.

Parlamentin ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri, Xarici Əlaqələr Daimi Komitəsinin sədri Sarqis Xandanyan, nümayəndə heyətinin üzvləri, deputatlar Mariya Karapetyan, Lilit Minasyan, Artur Hovhannisyan və digərləri ATƏT PA-nın Payız Sessiyasının işində iştirak etmək üçün 16-20 noyabr 2025-ci il tarixlərində İstanbula səfər edəcəklər.

*Ağarza Elçinoğlu*

## Ərdoğan İsrail-HƏMAS sülhünə münasibət bildirdi

***Xəbər verdiyimiz kimi, İsrail və HƏMAS arasında atəşkəs razılaşması əldə olunub.***

"Unikal" xəbər verir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sosial şəbəkədə atəşkəslə bağlı açıqlama yayıb.

"Türkiyə olaraq bizim də töhfə verdiyimiz Şarm əl-Şeyxdə keçirilən HƏMAS-İsrail danışıqlarının Qəzzada atəşkəslə nəticələnməsindən çox məmnunam", -deyən Ərdoğan, razılaşmanın əldə olunmasında mühüm dəstək verən ABŞ prezidenti Donald Trampa, həmçinin Qətər və Misirə təşəkkür edib.

Ərdoğan atəşkəsi yaxından izləyəcəklərini də əlavə edib.

*Gülayə Mecid*

## İrəvandan sülh müqaviləsi ilə bağlı açıqlama

***"Sülh müqaviləsinin imzalanma vaxtı və yeri ilə bağlı iş gedir, Ermənistan sənədi imzalamağa, sonra isə ratifikasiya etməyə hazırdır".***

"Unikal" xəbər verir ki, bunu Ermənistan xarici işlər nazirinin müavini Vahan Kostanyan hökumətin iclasından sonra jurnalistlərə açıqlamasında deyib.

"Ermənistan Respublikası dinc və sabit region qurmaq fürsəti əldə edib və bu prosesə başlayıb, regionda amerikalı tərəfdaşlarımızla işlədiyimiz kommunikasiyaları açmaq imkanı əldə edib. Müzakirələr davam edir və biz nəticələri açıqlayacağıq", - deyə diplomat əlavə edib.

*Ağarza Elçinoğlu*

## "Rusiyanı qaranlığa qərq edərik" - Zelenski hədələdi

***Rusiyanın hərbi zərbələri nəticəsində Ukraynanın şəhərləri elektriksiz qalsa, Rusiya şəhərlərində işıqlar kəsiləcək və ölkə qaranlığa qərq olacaq.***

"Unikal" xəbər verir ki, bunu Ukrayna prezidenti Volodimir Zelenski yerli mətbuata açıqlamasında deyib.

"Onlara dedik ki, bizi işıqsız qoymaq istəyirlərsə, biz də bunu edəcəyik. Burada heç bir sirr yoxdur. Düşmən bu müharibənin bahasını hiss etməlidir", - Zelenski bildirib.

Onun sözlərinə görə, Ukrayna Belqorod və Kursk vilayətlərinə hücum həyata keçirir.

*Gülayə Mecid*

# İsrail və HƏMAS razılığa gəldi

***İsrail və HƏMAS atəşkəs, girovların azad edilməsi və İsrail qoşunlarının qismən çıxarılmasını ehtiva edən sülh planının birinci mərhələsi üzrə razılığa gəliblər.***



"Unikal" xəbər verir ki, bu barədə məlumatı ABŞ prezidenti Donald Tramp "Truth" hesabında paylaşıb.

O, İsrail və HƏMAS-ın "sülh planının birinci mərhələsini imzaladığını" açıqlayıb. "Bütün girovlar tezliklə azad ediləcək və İsrail öz qoşunlarını razılaşdırılmış xəttə çəkəcək. Bu, davamlı sülhə doğru ilk addımdır. Bu, ərəb və müsəlman dünyası, İsrail və ABŞ üçün əla gündür. Bunun mümkün olmasına kömək edən Qətər, Misir və Türkiyədən olan vasitəçilərə təşəkkür edirik. Sülhməramlılar nə bəxtiyardır", - Tramp yazıb.

Məlumata görə, Şarm əl-Şeyxdə ABŞ, İsrail, Misir, Qətər və Türkiyədən nümayəndələr iştirak ediblər. Danışıqlar bağlı qapılar arxasında, milli təhlükəsizlik müşavirləri və Yaxın Şərq üzrə xüsusi nümayəndələrin iştirakı ilə keçirilib. Qətər və Misir tərəflər arasında əsas vasitəçi rolunda çıxış edərək təkliflərin çatdırılmasını əlaqələndirib və mübadilə şərtlərini razılaşdırıblar.

Bununla yanaşı, ABŞ Prezidenti bildirib ki, İsrail və HƏMAS arasında razılaşma çərçivəsində israilli girovların fələstinli məhbuslarla dəyişdirilməsi oktyabrın 13-də baş tuta bilər.

*Gülayə Mecid*

# "Netanyahuya dedim ki..." - Tramp

***ABŞ prezidenti Donald Tramp HƏMAS-ın oktyabrın 13-də israilli girovları azad etməyə başlayacağını açıqlayıb.***

"Unikal" xəbər verir ki, Tramp bu barədə "Fox News" telekanalına müsahibəsində deyib.

"Bu, Qəzzadan daha çoxudur. Bu, Yaxın Şərqdə sülhdür", - deyə o qeyd edib.

ABŞ lideri Qəzza zolağının çox daha təhlükəsiz yerə çevriləcəyini və bölgənin zəngin ölkələrinin dəstəyi ilə yenidən qurulacağını açıqlayıb.

O qeyd edib ki, bu yaxınlarda İsrailin baş naziri Benyamin Netanyahu ilə danışıb: "Mən ona dedim ki, İsrail bütün dünya ilə müharibə edə bilməz".

*Ağarza Elçinoğlu*



# "Makron 48 saat ərzində qərar verəcək"

***Fransa prezidenti Emmanuel Makron yaxın 48 saat ərzində yeni baş naziri təyin edəcək.***

"Unikal" xəbər verir ki, bunu keçmiş baş nazir Sebastien Lekornyu "France 2" televiziyasına müsahibəsində bildirib.



"Hökumət başçısı digər tərəflərlə danışıqlar aparmaq missiyasını başa vurduğunu elan edib",- o, ifadə edib.

Bundan başqa, Lekornyu yeni parlament seçkilərinin keçirilməsi ehtimalını rədd edib.

# "Qəzza zolağının suverenliyi Fələstinə məxsusdur" - Abbas

***Fələstin prezidenti Mahmud Abbas Qəzza zolağının İordan çayının qərb sahili ilə paytaxtı Şərqi Qüds olan vahid dövlətdə birləşməsinə, ərəb və beynəlxalq dəstək almağa çağırıb.***

"Unikal" xəbər verir ki, siyasətçi bu barədə WAFA xəbər agentliyinə açıqlama verib.

"Qəzza zolağı üzərində suverenlik Fələstin dövlətinə məxsusdur və onun İordan çayının qərb sahili ilə əlaqəsi Fələstin qanunları və dövlət qurumları vasitəsilə bərpa edilməlidir", - Abbas qeyd edib. O, əlavə edib ki, hökumət tərəfindən Ramallahda yaradılmış Fələstin İnzibati Komitəsi "vahid Fələstin təhlükəsizlik qüvvələri tərəfindən dəstəklənən Qəzza zolağının idarəçiliyini öz üzərinə götürməyə hazırdır". Son olaraq Abbas ABŞ prezidenti Donald Trampın və bütün vasitəçilərin Qəzzada müharibənin dayandırılması, İsrail qoşunlarının Zolaqdan çıxarılması, əhaliyə humanitar yardımın həcminin genişləndirilməsi və əsirlərin mübadiləsi üçün razılıq əldə etmək səylərini yüksək qiymətləndirib.

*Gülayə Mecid*



## Paşinyan Brüsseldə Azərbaycanla sülh prosesini müzakirə etdi

***Ermənistanın baş naziri Nikol Paşinyan Brüsseldə keçirilən ikinci "Dünya qapıları" beynəlxalq konfransı çərçivəsində Lüksemburqun baş naziri Luk Fridenlə görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan hökuməti məlumat yayıb.

Tərəflər Ermənistan-Lüksemburq münasibətlərinin gündəliyinin məsələlərini müzakirə edib, ticarət-iqtisadi əlaqələrin inkişaf etdirilməsinin vacibliyini vurğulayıb, Ermənistan-Avropa İttifaqı əməkdaşlığının dərinləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparıblar. Həmsöhbətlər Ermənistan-Azərbaycan sülh prosesinə də toxunub, regional sabitlik və əməkdaşlığı vurğulayıblar.

*Ağarza Elçinoğlu*

38_27 IYUI-QARA.qxd 10/9/2025 9:57 PM Page 16



# AFFA "Zirə"nin futbolçusunu, "Neftçi"nin məşqçisini cəzalandırdı



***AFFA İntizam Komitəsinin növbəti iclası keçirilib.***

"Unikal" xəbər verir ki, iclasda Misli Premyer Liqasının 7-ci turunda baş verən qayda pozuntuları ilə bağlı qərarlar verilib.

"Zirə" - "Neftçi" oyununun 90+7-ci dəqiqəsində "Zirə" klubunun 17 nömrəli futbolçusu Ayron Qomis ikinci sarıdan qırmızı vərəqə aldığı üçün 1 oyun cəzalanıb, "Zirə" klubu 500 manat cərimə edilib. Oyunda VAR maşını ətrafında təhlükəsizlik tam təmin edilmədiyinə görə "Zirə" klubu 1000 manat cərimə edilib.

Matçda "Neftçi" komandasında 4 nəfər sarı vərəqə aldığı üçün klub 700 manat cərimə edilib. Oyunda "Neftçi" komandasının azarkeşləri tərəfindən kütləvi iğtişaş törədildiyinə görə klub 10000 manat cərimə edilib.

Qarşılaşmanın 90+5-ci dəqiqəsində "Neftçi" komandasının məşqçisi Vəfadar Quliyev hakimin qərarına etiraza görə birbaşa qırmızı vərəqə aldığı üçün 2 oyun cəzalanıb, "Neftçi" klubu 5000 manat cərimə edilib.

"Sumqayıt" - "Turan Tovuz" oyununda "Sumqayıt" komandasının 4 futbolçusu sarı vərəqə aldığı üçün "Sumqayıt" klubu 700 manat cərimə edilib.

"Qəbələ" - "Şamaxı" oyununda "Şamaxı" komandasının 4 futbolçusu sarı vərəqə aldığı üçün "Şamaxı" klubu 700 manat cərimə edilib.

# "Azərbaycanla matça ciddi yanaşmalıyıq" - Mbappe

***Diqqətimizi İslandiyaya yönəltməzdən əvvəl Azərbaycanla matça ciddi yanaşmalıyıq. Hər oyunun öz reallığı var və biz sabah qələbə qazanmalıyıq.***

"Unikal" xəbər verir ki, bu sözləri Fransa millisinin futbolçusu Kilian Mbappe DÇ-2026-nın seçmə mərhələsində Parisdə Azərbaycan millisinə qarşı keçirəcəkləri oyundan öncə təşkil olunan mətbuat konfransında deyib.



27 yaşlı hücumçu yığmamızın seçmə mərhələnin son turunda Bakıda Ukrayna ilə heç-heçə etməsini xüsusi vurğulayıb: "Bu qarşılaşma İslandiya ilə matçdan az önəmli deyil. Məqsəd dünya çempionatına vəsiqə qazanmaqdır. Vəsiqə təmin olunana qədər mübarizə aparmalıyıq".

Meydana çıxmağa hazır olduğunu söyləyən forvard istənilən komandaya qol bura biləcəyini ifadə edib: "Mən sabah oynamaq istəyirəm, baş məşqçi də buna qarşı deyil. Ciddi problemlərin olacağını düşünmürəm. özümü yaxşı hiss edirəm. Bu gün məşq edəcəyəm, bu oyunöncəsi son hazırlıq olacaq. Xüsusi narahatlığım yoxdur".

Qeyd edək ki, oktyabrın 10-da "Park de Prens" stadionunda keçiriləcək Fransa - Azərbaycan görüşü Bakı vaxtı ilə saat 22:45-də başlanacaq.

# Baş məşqçi vəfat etdi

***Argentina futboluna ağır itki üz verib.***

"Unikal" xəbər verir ki, "Boka Xuniors" klubunun baş məşqçisi Migel Anhel Russo 70 yaşında dünyasını dəyişib. Məlumatı klubun rəsmi saytı yayıb.




Mütəxəssis ötən ayın sonlarında səhhətində yaranan problemə görə xəstəxanaya yerləşdirilmişdi. Həkimlərin səyinə baxmayaraq, onun həyatını xilas etmək mümkün olmayıb.

Qeyd edək ki, Migel Anhel Russo futbolçu karyerasını "Estudiantes"də keçirib. O, 1989-cu ildə məşqçiliyə başlayıb, "Lanus", "Veles Sarsfield", "San Lorenso", "Əl-Nəsr", "Millonarios", "Estudiantes" və "Boka Xuniors" kimi komandalarda baş məşqçi işləyib.

# Azərbaycan Kubokunda yeni mövsüm başlayır

***Futbol üzrə Azərbaycan Kubokunda 2025-2026-cı illər mövsümünə start verilib.***




"Unikal" xəbər verir ki, I təsnifat mərhələsinin ilk oyun günündə dörd qarşılaşma keçiriləcək.

Dünən bütün görüşlər eyni vaxtda - saat 14:00-da başlayıb.

**9 oktyabr (cümə axşamı)**

"Sheki City" - "Araz Saatlı"

Hakimlər: Ruslan Quliyev, Zöhrab Abbasov, Nurlan Əhmədzadə, Vüqar Həsənli

Hakim-inspektor: Ceyhun Haşımov

AFFA nümayəndəsi: Zaur Hacı-Məhərrəmov

"Rekord Arena"

"Qaradağ Lökbatan" - "Ağdaş"

Hakimlər: Şamil İmanzadə, Tərlan Talıbzadə, Səbuhi Əmrahov, Əkbər Əhmədov

Hakim-inspektor: Şahin Cəfərov

AFFA nümayəndəsi: Bəhram Qurbanov

Lökbatan OİK stadionu

"Dinamo" - "Kür-Araz"

Hakimlər: Mahmud Bağırzadə, Gülnurə Əkbərzadə, Vüqar Bayramov, Namiq Bəkirov

Hakim-inspektor: Ramil Diniyev

AFFA nümayəndəsi: Zümrüd Ağayeva

Binə qəsəbə stadionu

"Ağstafa Gəncləri" - "Şirvan"

Hakimlər: Alik Yunusov, Şirmamed Mamedov, Səbuhi Soltanov, Murad Səlimov

Hakim-inspektor: Rövşən Əhmədov

AFFA nümayəndəsi: Eldar Məmmədov

Ağstafa şəhər stadionu

Qeyd edək ki, bu mərhələnin digər üç oyunu oktyabrın 10-da keçiriləcək.

# "Bavariya" 35 milyon avroluq təklif göndərəcək



***"Köln"ün futbolçusu Said El Mala Almaniyada klubunu dəyişə bilər.***

"Unikal" xəbər verir ki, "Bavariya" 19 yaşlı vingeri transfer etmək istəyir.

Bundesliqa nəhəngi Almaniya U-21 millisinin üzvü üçün onun klubuna 35 milyon avroluq təklif göndərməyi planlaşdırır.

Qeyd edək ki, "Köln" Said El Malanı 2024-cü ilin yayında "Viktoriya Köln"dən 350 min avroya transfer edib. Gənc futbolçu bu mövsüm komandanın heyətində meydana çıxdığı 7 rəsmi matçda 2 qol və 1 məhsuldar ötürmə ilə yadda qalıb.

# Transfer rekordu qırıla bilər - Yamal PSJ-nin hədəfində

***Fransanın PSJ klubu İspaniya millisinin və "Barselona"nın futbolçusu Lamin Yamalı transfer etmək istəyir.***



"Unikal" xarici mətbuata istinadla xəbər verir ki, Paris təmsilçisi 18 yaşlı hücumameyilli yarımmüdafiəçi üçün Kataloniya klubuna 230 milyon avro təklif etməyə hazırlaşır.

Gənc vinger bu mövsüm "Barselona"nın heyətində 5 oyun keçirib, 2 qol və 4 məhsuldar ötürmə ilə yadda qalıb. Futbolçunun hazırkı transfer qiyməti 200 milyon avrodur.

Qeyd edək ki, dünya futbolunun hələlik ən bahalı transferi 2017-ci ildə Neymarın "Barselona"dan PSJ-yə keçididir. Fransa klubu həmin vaxt braziliyalı ulduza görə qarşı tərəfə 222 milyon avro təzminat ödəmişdi.